Hüseynbala MİRƏLƏMOV

# ƏCLAF

(Povest)

Qonşu uşaqları onu Səkinə xala deyə çağırardılar. Bu sayaq müraciətə görə onları qınamaq yersiz olardı. Çünki yaşının azlığına baxmayaraq qadın əməllicə qocalmışdı. İnsan ömrünü illərin sayğacı ilə hesablamaq bəzən özünü doğrultmur. Kimin nəyinə qalıb ki, cavan adama xala desin. Uşaq da aşıq kimidi, ürəyi dilində, gördüyünü çağırır. Qocalmaq nə təhər olar tay? Saçları vaxtından tez, həm də pambıq kimi ağappaq ağarıb. Üzü yaşılı, qırmızısı, daha hansı rənglərisə çoxdan çəkilib getmiş payız peyzajını xatırladır. Sanki əlvan bir çəmənzar üstündən qəfil tufan ötüb, amansız qum küləyi əsərək gənclik cizgiləri hələ də lap dərində, güclə sezilən qadın gözəlliyini yağmalayıb.

Qadın bir zamanlar gözəl olub. Bunu ayrı bir əlamət yox, bir az əvvəl deyildiyi kimi, qəfil tufanınmı, amansız qum küləyininmi yağmalayıb apardığı qənirsiz gözəlliyin onun çöhrəsində ilişib qalan, solğun cizgiləri nişan verir. Dərdin təklədiyi adamlar, görünür, belə qocalırlar.

Əslində qüssə-qəhərini kiminləsə bölüşmək istəyi də yoxdur. Nə ayrı bir mərhəmətə, nə də kiminsə təəssüf dolu baxışlarına ehtiyacı var. Axı, bu solğun görkəm onun ömrünün, qəlbinin şəkli idi, onu əlahəzrət gözəl bir vaxtda cızmışdı. Qadının zahiri ilə daxilini, iç dünyasını əkiz adlandırmaq olardı, bir şərtlə ki, o içində oğlu Poladı, balasının üzüntülü qayğılarını daşı¬ma¬yay¬dı. İstəkli oğlu qəlbindəydi, bağrının

başındaydı, çəkilən acıları  bu qədər əziz, bu qədər yaxın olan insandan gizlətmək isə asan başa gəlmirdi.

«Nə ürəyi var ki, Poladın?  Onu öz dərdimə şərik eləyə bilmərəm, – düşünürdü Səkinə, – imkan verə bilmərəm ki, oğlum atasızlığı hiss eləsin».

Allahın yazısına görə ata atadı, ana da ana… Bəs görəsən eyni ömür civarında həm ata, həm də ana olmaq qismətinin Allah yazısına bir dəxli varmı? Səkinə sadə və macalı olmayan qadın idi, belə dərin suallar üstündə baş sındırmağa hövsələsi hardaydı?

Yuxarı dağ kəndindən idi Səkinə. Aşağıda – şəhərə bitişik dənizqırağı qəsəbədə onun ata-ana tərəfdən yaxın qohumu demək olar ki, yaşamırdı. Atası həyatdan tez getmişdi. Anası dururdu. Qapılarını da vaxtlı-vaxtında döyən elə o idi – anası Gülpəri. Gülpəri nənə qızının qəsəbədəki evinə qonaq gələndə Polad arvadın qabağına qaçır, sevinirdi. Hətta, yekəlib boy atmışdı, doqquzuncuda oxuyurdu, elə ki, darvaza açılır, nənə həyətə girirdi, bu zaman sanki dünyanı Polada verirdilər. Dönüb olurdu körpə. Yazıq arvadı dürtmələyir, tumanını dartışdırır, duz-buz kimi yalayırdı. İstək qarşılıqlı idi. Nənə də uşağın boyun-boğazını sığallayır, dönə-dönə bağrına basır və hər dəfə də bu sözləri mütləq deyirdi: «Qızımın ümidi balam».

Nənə nəvəsi ilə qolboyun olub birmərtəbəli, balaca eyvanlı evə keçir. Bax burda da onun yolunu gözləyən var. Kim olasıdı ki? Doğmaca qızı, Səkinə.  Poladdan ehmalca qopub Səkinənin boynunu qucaqlayan ana qızının gözlərinə baxıb doluxsunurdu. «Səni solduran nədi, ay başı xeyirli?» Nənə qəhərdən təntiyirdi, amma bu sözləri heç vaxt dilinə gətirmirdi. Bir-birini sözsüz də başa düşən ana-bala beləcə, kirimişcə

görüşür, qəhərdən dolub susur, boğulan iki ocaq kimi korun-korun tüstülənirdilər.

Bu çətin görüşü aralıdan süzən, yeniyetmə qəlbinin lap dərinliklərində nəyisə hiss edib-etmədiyi bilinməyən Poladın xətrini isə nəinki anası Səkinə, nənəsi Gülpəri, həm də böyüklü-kiçikli bütün qonum-qonşu çox istəyirdi, az qala anası, nənəsi qədər əziz tuturdular onu, qənimət övlad, təbərrik bilirdilər…

Bir var əcəl, bir də var əcəli-mayallaq. Atası Dəmiri təsadüfi əcəl iş başında yaxalayanda Polad əl parçası boyda tifil idi, heç birinci sinfə də getmirdi.

Dəmir Rusiya tərəflərə gedən yük qatarında bələdçi işləyirdi. Ona «ekspe¬ditel Dəmir» deyirdilər. Pis-yaxşı, əlində, ovcunda olurdu. Hər dəfə səfərdən dönəndə getdiyi yerlərdən Səkinəyə növbənöv paltarlar, təzəcə doğulan, balaca dəmir beşikdə evin bir tərəfini özünə məskən eləyən Polada da qəşəng oyuncaqlar gətirirdi. İldə bir-iki səfər bəs edirdi ki, ilboyu onların dolanışığı, əyin-başları qaydasında olsun, hətta artıq pulları da qalırdı və hər dəfə də Dəmir arvadına deyərdi ki, qalan pulları dağıtma, Allah qismət eləyər,  təzə ev tikərik. Elə köhnə evinin yerində…

Sən saydığını say, gör fələk nə sayır. Hadisə, Dağıstanda baş vermişdi. Taxta vaqonun qapısında dayanıb yaxınlaşdıqları stansiyaya baxarkən ehtiyatsızlıq üzündən ayağı qaçmış, başı dəmiryolunun qırağında basdı¬rı¬lan tökmə dirəyə dəymişdi. Ağır zərbədən kəllə sümüyü paralanmış və o, yerindəcə keçinmişdi.

Dəmirin cənazəsini həyətə dəmiryolçular gətirmişdilər. Səkinəyə pul verib, hüzür yerində bir qədər yubanandan sonra çıxıb getmişdilər.

Səkinə fəryad qoparıb heç olmasa son dəfə ərinin üzünə baxmaq istəsə də, yerli ruhanilər razılıq verməmişdilər. Halbuki o dərdin yerə-göyə sığmadığı ağır dəqiqələrdə, yuyub-ütüləyib əliynən açdığı yatağa necə birgə girirdilər, indi də bax eləcə, tabutun örtüyünü aralayıb ərinin qoynuna atılmaqdan, onu bağrına basıb böyrünə qısılmaqdan, onunla birlikdə gedər-gəlməz səfərə yollanmaqdan başqa bir fikir ağlına gəlmirdi. Boşluğa nə var ki, hər necə olsa boşluqlar dolur, onun içində isə sadəcə boşluq deyil, sonsuz bir yoxluq vardı… Bu yoxluq Dəmirin özü idi ki, tabu¬tun içində, Allah bilir, param-parça olub hansı şəklə düşərək uzanmışdı. Son dəfə ərinin üzünə baxmağı belə ona çox görürdülər. Bəzən adətlər, diri bir yana, ölünün də azadlığını əlindən alır. Ölünü öz xoşuna buraxsan – deyir, – dikəlib kəfəni yırtar. Amma o ölü deyildi, bircə günün, bircə saatın ərzində iri bir günəbaxan tumuna dönmüş, fələyin barmaqları arasında basılıb əzilmiş, həyatı, arzuları, bəxtiyarlığı puça çıxmışdı. Amma nə olsun ki, o əriynən birlikdə ölmək, eyni anda, eyni qəbirdə dəfn olunmaq istəyirdi. Mümkün deyil axı bu! Əvvəldən, insanlıq yaranan gündən əda¬lətli, bəlkə də ədalətsiz bir qanun hökm sürməkdədir: ölənlə ölmək olmaz! O biri yandan ruhsuz və cansız yoxluq necə ölə bilər? Ən əziz adamdan bu sayaq namərd və insafsız ayrılıq çox-çox sonralar da Səkinəni üzüb əldən salacaq, yaralı qəlbini illər boyu, az qala hər gün iti bir xəncər kimi kəsib doğrayacaqdı… Yəqin ki, yara üstündən vurulan yaranın ağrısı onu gor evinə qədər incidəcək… Yəqin ki!

Bir cümə axşamı, beş cümə axşamı… Qırx… hamısı ötüb keçdi. Dərdə şərik çıxanların ayağı hüzr qapısından çəkildi. Qalan Gülpəri arvad idi, anası. O da qırxdan sonra ay yarım keçmiş yığışıb getdi dağ

kəndlərindəki komasına, gor qonşularının yanına. Hər dəfə Dəmir səfərdən qayıdanda onun başına yığışan tay-tuşlar, yaxın-simsarlar Səkinənin aralı¬dan gəldiyini görəndə yolu dəyişdilər. Sonra da yağışın dalınca dolu töküldü. Dəfn mərasiminə, cümə axşamlarına çəkilən xərclərdən ayrı Səki¬nənin naxışlı sandığında xeyli pul qaldı. Hərdən dul qadının gözü həmin sandığın üstündəki alabəzək, rəngli naxışların arasında əyri-üyrü xətlə yazılmış «Toyunuz mübarək!» sözlərinə sataşanda elə bilirdi ki, hələ o miqyassız yoxluğa düşməyib, hələ heç ərə də getməyib, yazıq anası cehizlik sandığı indicə gətizdirib.

Artıq o bütün davranışlarını, hətta evin quruluşunu gündən-günə boy atıb böyüyən Polada münasib nizamlayırdı. Maşallah, sürətlə böyüyürdü Polad… anlamağa başlayırdı… İndi o özünü elə tox tutmalıydı ki, atasız uşağın könül şüşəsi cızılmasın, balası fikir çəkməsin. Fikir salmadımı onu bu kökə? Fikir üzmədimi ürəyini, fikir ağartmadımı saçlarını? Gözəl gözlərindən gözəl üzünə bulanıq, dərdli göz yaşlarının sellənməyi fikir səbəbindən olmadımı?

Nələr ki, onu qəhərləndirib, ağlada bilərdi və onun qəhərini, ağlamağını Polad görüb sınardı, Səkinə onların izini itirmək, bu mümkün olmayanda isə heç olmasa hər cizgisində Dəmiri xatırladan ev avadan¬lıq-larını o yan bu yana sürütləyib mənzərəni dəyişmək istəyirdi.

Ovqatını ən betər ağzı çoxdan bağlı olan cehiz sandığı dəyişirdi. Həmin sandıq… üstündə əyrim-üyrüm xətlə yazılmış «Toyunuz mübarək!» sözləri. Qafqazda adətdi, bəlkə dünyanın uzaq, ayrı diyarlarında da belədi, gəlin cehizlərindən ən vacibi bəzəkli sandıq sayılır. Adətən qıraqları qara rənglənmiş nazik tənəkə dəmirlə

bərkidilən bu sandıqların üstündə əsil yaz tamaşası təsvir olunur: gül bülbülü çağırır, bülbül də dübarə qayıdıb gülü çağırır. Butaların, güllərin, yarpaqların, içi nöqtəli paxlava naxışların işlənməsi ola bilsin ki, kiməsə primitiv təsir bağışlasın, amma sandıq ustalarının rəng fantaziyasına söz ola bilməz. Sandıq bəzəməsində, yalan olmasın, həyatda gözə dəyməyən rəng də tapmaq mümkündür. Üst bəzəyi öz yerində. Sandığın çölü bir aləmdisə, içi bam-başqa bir aləmdi. Lap dibdə ortası güllü nəlbəkilər, qaşıq, çəngəl, bıçaq dəstləri… illər boyu qatı açılmayan məhrəbalar, dəsmallar, yun corab, baş yaylığı, geyimlər, iynə, sap, növ-növ parça kəsikləri... Təzə gəlin üçün hazırlanan sandıq balaca muzeydi sanki…

Ərinin sağlığında, xüsusən Dəmir səfərdən dönən vaxtlarda ya təzə nəlbəki, ya bəzəkli süfrə, məhraba çıxarmaq səbəbindən vaxtaşırı açılan sandığa indi nadir hallarda yaxın gedib toxunurdu. Əlvan naxışlar arasına həkk edilən «Toyunuz mübarək!» sözünü görəndə isə ürəyi ağzına gəlirdi, qəhərdən sinəsi körüklənirdi. Nəhayət, belə hala düşdüyünü Polad görməsin deyə sandığın «Toyunuz mübarək!» yazısı olan tərəfini çevirib üzü divara qoydu.

İkinci işi də bu oldu; illər boyu üzünü bürüyən göz yaşlarını içində boğdu ki, Polad onun ağladığını görməsin. Acı qəm yaşları isə axmaqda davam edirdi, sadəcə, axar yolunu dəyişmişdi, içinə axırdı. Hər şeyə can verən su onun içini çürüdürdü. Nə olur olsun, təki Polad sınmasın, ürəyinə xal düşməsin…

Polada bu adın qoyulmasının da balaca bir ailə tarixçəsi var. Qəribədir ki, onun adı özündən bir qədər irəli doğulmuşdu. Onda hamiləydi. Dəmir qaynanmış samovarın qulpundan tutub həyətdən

içəri gətirdi. Balaca məcməyidəki dəm çaynikini, stəkanları samovarın yanına, kiçik masanın üstünə düzən Səkinə birdən yerində donuxub qaldı. Bilmək olmurdu sevinir, qorxur, yoxsa çaşıb. Amma səsi titrəyə-titrəyə dodaqaltı nəsə deyirdi.

– Yavaş, məni öldürdün ki!..

Dəmir üşənən kimi oldu. Bu qadın niyə öz-özünə danışır? Samovarı yerbəyer eləyib ehmalca Səkinənin biləyindən yapışdı:

– Sənə nə oldu?

– Heç, – dedi Səkinə.

– De görüm, nə oldu axı sənə?

– Görmürsən necə təpikləyir? – Səkinə göz qapaqlarını tərpədib şişgin qarnına işarə elədi.

Dəmir başını bulayıb güldü. Sonra arvadının saçını sığalladı, əlini belinə çəkdi. Səkinə utana-utana ərinin üzünə baxdı:

– Deyəsən, elə özün kimi kor-kobud olacaq, – Səkinə ehtiyatla kətilə əyləşəndən sonra əlini dizinin üstünə qoyub bunu dedi: – Deyəsən, oğlandır!..

– Əlbəttə, oğlandır ki, belə şıllaq atır. Gəlsənə bu kor-kobudun adını indidən qoyaq, – bunu da Dəmir gülə-gülə dedi.

– Hə də, sənin adın Dəmirdi, onunku da olsun Polad… Daha sizə batan olmaz…

– Sən hələ lağ elə, çətin günlərin qabaqdadı hələ, ay bala. Elə bilirsən Dəmir, Polad yükü çəkmək hər adamın hünəridir?

Beləliklə əvvəl adı, sonra Polad özü doğuldu. Kim nə deyir desin, xoşbəxtlik adilikdədi. Balaca ailə adi günlər yaşayırdı. Amma xoşbəxt idilər… Tale bərkə-boşa baxmır, istəyəndə ən sərt dəmiri də mum kimi

əyir, əyir nədi, parça-parça, tikə-tikə eləyir. Polad Dəmirsiz böyüməli oldu…

O, zehinli uşaq idi, yaxşı oxuyurdu. Bircə qiyməti vardı, «əla». Hər dəfə Gülpəri arvad qonaq gələndə özü ilə bir bərni bal gətirirdi. Deyirdi qoy uşaq gümrah böyüsün. Nəvəsinin zehinli olmağı nənəyə ləzzət verirdi. «Kərəminə şükür, ilahi, deyirdi, rəhmin böyükdü, bir tərəfdən alanda, bir tərəfdən verirsən».

Polad balaca barmağını dəftərinin üstünə basa-basa həvəslə qırmızı «beş»lərini nənəsinə göstərəndə Gülpəri arvad yaşına uyğun tərzdə Poladla zarafatlaşmaqdan da qalmırdı:

– Özünü çox öymə. Gülpərinin balının hesabına alırsan ey, o beşləri…

Polad söz altında qalmırdı:

– Yox əşşii.. özün gündə bir stəkan bal hortdadırsan, bəs hanı sənin aldığın «beş»lər…

Nənə daha bir söz demir, xısın-xısın gülürdü.

… Bir dəfə məktəbin fondundan ehtiyacı olan, həm də ilk növbədə valideynlərini itirmiş uşaqlara paltar verilirdi. Deyəsən, Polad altıncıda oxuyurdu. O, paltardan qəti imtina elədi. Qulağı çalmışdı ki, yetimlərə verilir. Özünü yetim hesab etmirdi. Bir dəfə hələ bundan da bir qədər körpə olanda anasından «Atam hardadır?» – deyə soruşmuş, o da demişdi ki, atan elə sənin özünsən. O, Dəmir idi, sən də Polad. Polad da Dəmirdi də, lap, lap bərk dəmir. Heç vaxt əyilmir.

Polad get-gedə atasının görkəmini alırdı. Elə xasiyyəti də onun kimi olurdu. Həmən vaxt uşağın götürmədiyi paltarı sinif rəhbəri evə gətirdi. Əhvalatı danışdı. Anası Poladı hayladı.

– Hardasan, ə Polad, içəri gəl görüm. Niyə paltarı götürməmisən?

– Heç bilirsən o paltarlar kimlər üçündür? Yetimlər üçün…

Sinif rəhbəri dilləndi:

– Onu kim dedi sənə?

– Polad, bu paltar sənin yaxşı oxumağına görə verilir.

Polad başını aşağı saldı.

– Hə, Polad, bu sənin yaxşı oxumağına görədir. Müəllimlərin səndən razıdırlar.

Polad gözucu paltarlara sarı baxıb otaqdan çıxdı.

O paltarları Polad geyindi. Qəribədir, ayrı vaxt inadkarlıq eləyib sözünün üstündə duran uşaq həqiqətən inandı ki, bu paltarları o özü qazanıb, aldığı «beş»lərin hesabına qazanıb.

Günlər ötürdü. O, böyüyürdü.

Böyüdü. Ali məktəb tələbəsi oldu. İkinci kursda oxuyanda nənəsi rəhmətə getdi. Birinci kursdan tanış olub ünsiyyət bağladığı Ruslan da ona qoşuldu, nənəsinin dəfninə yollandılar: dağ kəndinə. Onunla ünsiyyəti ilk gündən tutmuşdu. Çünki Ruslan, sözün hər mənasında, duzlu-məzəli oğlan idi. Zalımın balası bir yerdə tikiş tutmur, hərəyə bir cür kələk gəlirdi. Maraqlıdır ki, o, Polada münasibətdə büsbütün dəyişib başqa adam olurdu. Əslində, bu tərzdə yanaşma müəyyən vaxt aralığında formalaşmışdı. Siftə başdan adama girişib onun qabında nə olduğunu, gücünün nəyə çatdığını müəyyənləşdirmək Ruslanın azarı idi. Aldığı reaksiyadan kimin nəyə qadir olduğunu o saatca bilirdi. Polad Ruslanın şit hərəkətlərinə demək olar ki, dinmir, belə məqamlarda ona sadəcə bir anlıq, amma kəskin bir nəzər salırdı. Bu sərt baxış özünü yığışdırmaq üçün Ruslana bəs edirdi. Yavaş-yavaş Ruslan Poladın yanın¬da adam balası oldu. Aralarında hörmət-izzət yarandı. Tam iddia

etmək də düz olmaz ki, onların bir yerdə keçən vaxtı tam rəsmi çərçivədə əriyirdi. Xeyir, demək, gülmək, zarafat vardı, sadəcə əndazə¬sində.

Anası ölmüşdü Ruslanın ki, dana kimi soncuqlamasın. Ürəyi partlayar. Tez-tez Poladın təbii davranışlarına, hədsiz səmimiyyətinə işarə vurub deyirdi:

– Neyləyirsən elə, kəndçisən ki, kəndçi. Deyəsən səni yonub-yonta¬layıb kəndçilikdən çıxarmaq bizim taleyimizə yazılmayıb…

– Sən kəndçilikdən çıxmısan, hamımıza bəs edər, – Polad cavab verirdi.

Ruslangil də əslən rayonlu idilər. Şəhərə köçmüşdülər. Ruslanın atası əmisinin şirkətində işləyirdi. Şirkətin təsərrüfat-maliyyəsinə o baxırdı. Nə olsun ki, kənddən yeni gəliblər.

Fərasət ayrı şeydi. İki-üç həf¬tənin içində atasının «Jiquli»sini sürməyi öyrəndi. Yekəxanalıq ucbatından bir yol maşını divara çırpdı, bir yol işıq dirəyini aşırdı. Qısa müddətdə Ruslanın zəngin və keşməkeşli sürücülük tarixçəsi yarandı və sonra da yaşıdları ilə kimin daha çox qəza törətdiyini saymağa başladı. Bu qəzaların sayı kimdə çox olsa, o, özünü daha «blatnoy» şofer hesab edirdi. Bütün hesabatlarda Ruslan tay-tuşlarının arasında liderliyi saxlayırdı. Polad Ruslanın liderli¬yin¬dən xəbərdar idi. Bəzən sözün düzünü zarafatyana deyirlər. O da bir dəfə Ruslana dedi ki, qaqaş, qəzadan-zaddan qorxma sən, uzaq başı başın çırpılacaq podpresə, ölüb gedəcəksən.

– Bu olmadı ki, brat, öləcəyəmsə daha nədən qorxmalıyam?

Polad eyhamlı zarafatı bir qırağa qoyub ciddiləşdi:

– Ruslan, insan itkisi həmişə ağırdır, doğmaları bərk yandırır. Ölümüylə adamların təəssüfünü qazanmaq ləyaqətdir. Həyatda elə qəzalar ola bilər ki, salamat qalıb yaşayarsan, amma hamı səni qınayar və o qınaq dünyanı başına dar eləyər. Bax, bu, dəhşətlidir.

– Düz deyirsən, qardaş, – Ruslan razılaşdı. – Kəlləsən vallah… Xoş¬bəxt o adamdı ki, sağlığında hörmətli, öləndə əziz olur. Belə yaşamaq üçün istedad lazımdır ey, istedad.

Ruslanın cavabı nədənsə Polada sirli gəldi. Çözələməyə şəxsən onun fəhminin yetərli olmadığı bir anlaşılmazlıq vardı cavabda. Poladın çaşqın halını qəlbinin dərinliklərində ani də olsa hiss edirdi Ruslan…

Bu söhbət düşəndə onlar tək deyildilər, digər tələbə yoldaşları ilə bir yerdəydilər. Lakin heç kəs bu söhbətin içində gizlənən eyhamın fərqinə varmadı. Bəlkə heç fərqinə varmağa dəyməzdi də. Axı yerli-yersiz və yaxud yeri düşəndə həyat və ölüm haqqında mübahisə açıb filosofluq eləmək tələbənin şakəridir. Nə isə…

Bütün məsələlərdə hər şeyin axırına çıxmağı sevən Ruslanın Poladla razılaşmağı əslində üzdən idi. İpə-sapa yatmamağının bir səbəbi də bəlkə aşkarlığa əsaslanmağındaydı. Ruslan asanlıqla təslim olan deyildi. Qətiy¬yən istəməzdi ki, kimsə onun haqqında gizli düşüncədə qalsın. Bir dəfə atası Mahal ona demişdi ki, əgər adamların sənin barəndə nəsə şübhəli bir düşüncəsi varsa çalış, fikrini açıq bildirsin. Münasibətləri tarazlamaq üçün bu, çox vacibdir. Yığılan narazılıq, gizli fikirlər torpaq uçqunu kimidi, ayaq altından qaçır və insanı yarğana itələyir. İnsanların nəzərindən düşmək fəlakətdir. Elə onda da Ruslan başa düşdü ki, Polad sadəcə onun sözünün başına ip salmaq istəmədiyinə görə susdu.

Yüz faiz belədir. Polad onun hərəkətlərini bəyənmir, düşüncələrinə qarşıdır. Amma susur. Ehtiyatlı olmaq gərəkdir. Poladdan baş açmaq olmur. Yatmış vulkan kimidi. Bir də gördün püskürdü. Bəlkə də ikilikdə olsalar eyib etməz. Amma birdən, Allah eləməmiş, ağzından nalayiq bir kəlmə çıxar, bu yatmış vulkanı tərpədər, həm də bu zaman onlar ikilikdə deyil, tələbə dostlarının, xüsusən qızların əhatəsində olarlar, bax onda ara qarışıb məzhəb itər, it də gedər, ip də. Sonrası isə məlumdur, əlvida Polad… əlvida Ruslan…

Səhəri gün elə bir əhəmiyyətli hadisə baş vermədi. «Sabahın xeyir, aqibətin xeyir», - deyib, həmişə olduğu kimi əllə görüşüb, hal-əhval tutdular. Tənəffüs vaxtı birlikdə bufetə düşdülər, nəsə alıb əlqap elədilər. Adi bir tələbə günü… Dərs bitdi. Pilləkənləri birgə düşdülər. Heç biri dinib-danışmırdı. Universitetin yan tərəfinə buruldular. Ruslan qabaqda gedirdi. Haraya getdiklərini soruşmayan Polad bir-iki addım arxada dinməzcə addımlayır¬dı. Şam ağaclarının qara kölgəsinə çatanda Ruslanın səsi gəldi:

– Qardaş…

Polad, Ruslanın dilindən çıxan duyğulu «qardaş» sözündən nəsə bir mər¬həmlik hiss etdi. Poladın qardaşı yox idi. Bilmirdi ki, doğma qardaşlar bir-birini necə çağırır. Həm də Ruslan «qardaş» kəlməsinin axırındakı «a»-nı xeyli uzatmışdı. Sanki Polad onun qardaş çağırışına yox, sözün sonunda uzandıqca uzanan «a»-ya hay verməli idi. Polad onun üzünə baxdı. Qəşəng, nurlu bir sifətlə üzbəüz dayanmışdı. Ruslan həqiqətən yaraşıqlı oğlan idi. Əyin-başı əla. Həmişə səliqəli geyinirdi. Hamı ilə şirin danışmağa çalışırdı. Bəlkə də heç vaxt çalışmırdı. Sadəcə,

ona qarşı elə bir ciddi iradı yoxdu. Bəzi hərəkətlərini bəyənmirdi. İstəyirdi dostu bəzi eyiblərini «ixtisar» eləsin.

Polad qrupda riyaziyyatı ən yaxşı bilən uşaqlardandı. Riyaziyyatda qayda sayılan «ixtisar» sözünü dostların dilinə o salıb; həyati mənada… uzun uzadı, bəlağətli nitqin, boş söz-söhbətin ixtisarı yolu ilə məsələnin daha asan həllinə yetişmək nəinki mümkündür, hətta norma olmalıdır ki, işlər xeyli asanlaşsın. Poladın danışıq üslubu məhz belə idi, onun üçün fikrin məğzini qısa, aydın şəkildə çatdırmaq əsasdır.

Polad xasiyyətinin əksinə olaraq bax bu saat, bu an istəyirdi ki, Ruslan «qardaş» sözünü bir də desin və çoxlu, lap çoxlu danışsın. Əkiz qardaş kimi gəlirdi Ruslan ona. Ruslan «tarixi qardaş» kəlməsindən sonra ikinci cümləsini işlətdi:

– Deyəsən, dünən narazı qaldın.

Polad cavab verməyə tələsmədi. Ruslanı tənqid atəşinə tutmaq, eybini üzünə demək fikrindən çox uzaq idi. İstəmirdi ki, onun könlünə dəyən bir söz işlətsin. Amma qərara gəlmək də lazım idi: «Qoy buna sözümü açıq və kəsə deyim». Polad «ixtisar» düsturunun kara gələcəyinə inanırdı. Bununla yanaşı elə indi, şam ağaclarının qara kölgəsində bu dələduzun (onlar bəzən sevimli olurlar), nə vaxtsa öz şitliyinə görə cəzalanacağına indidən acıyaraq «ixtisar» qaydasına görə uzun bir izahat, bəlağətli nitq yolunu keçmədən kəsəcə dedi:

– Sən məni düz başa düşməmisən, Ruslan, Əgər… – istəyirdi desin ki, əgər düzgün anlasaydın heç bu söhbəti təzələməzdin, oturuşuna-duruşuna fikir verərdin… demədi.

Ruslan lap yaxına gəlib Poladın sifətini iki ovcu arasına alaraq özünə tərəf döndərdi:

– Necə yəni düz başa düşməmişəm? Sənin bu başının qızıl olduğunu başa düşməyə nə var ki? Kaş baş səndən olaydı, fərasət məndən…

Polad daha bir «ixtisar»lı cavaba macal tapmadı. Onsuz da mükalimə çox qısa bir vaxt aralığında baş vermişdi. Bu yandan da Afət, sinif nümayəndəsi. Lap bir addımlıqda dayanmışdı. Elə bil izləyirmiş onları. Adətən bir az aralıdakı geniş yola çıxmaq üçün tələbələr şam ağacları arasından kəsə keçib getməyə üstünlük verirdilər. Həm də görünür Afət onların arasındakı qısa mükaliməni eşitmişdi. Yoxsa, Ruslan Poladın hələ də əlləri arasında saxladığı sifətini boşlamağa macal tapmamış qız belə deməzdi:

– Fərasətini deyə bilmərəm, amma ağıllı başın olsaydı, marşrutlarda sıxılmaqdan canın çıxardı, cibində də siçan oynayardı…

– O nə təhər olur, ağılla pul qan düşmənidi? – Ruslan Poladdan azca aralanıb, Afətə tərəf dönərək belə dedi.

– Əlbəttə elə deyil, ancaq gərək ağıl və sərvət bir-birindən utanmasın, bir-birinə söykənsin.

Əslində Poladın bu sözləri filosofluq naminə deyildi, mübahisəni kəsmək üçün idi. İstəmirdi ki, dostu ağzına gələni danışıb Afətə üzüntü versin.

Elə də oldu. Mübahisə uzanmadı. Üçü də bir yerdə şam ağacları arasından keçib böyük yola sarı yeridilər.

***

Vaxt öz işində idi. Günlər, aylar, semestrlər ötürdü. Ötən günlər, aylar içində Ruslanın bütün tələbələr arasında anladığı, ürək qızdırdığı

yeganə adam Polad idi. Polad bunu bilirdi. Ruslana görə Polad az qala əvəzolunmaz adamdı.

Ruslanın kurs işi, imtahan qorxusu yox idi, onsuz da qiymət alırdı, özü də hamıdan qabaq. Nəyinə gərəkdi boş yerə dəftər korlasın, qalın-qalın kitabları oxuyub gözünün qarasını aparsın. Bununla belə, Polad formal da olsa, onun kurs işlərinə əl bulamalı olurdu. Və çəkdiyi zəhməti də dostuna halal eləyirdi. Lap yuxarı kurslarda isə Ruslan yazı-pozu işlərinə yekə bir nöqtə qoydu. Bir növ Poladı da əlavə zəhmətdən xilas etdi.

Zahirən bilinməsə də, əslində tamamilə başqa-başqa xasiyyətdə olan iki tələbə dostun getdiyi yol eyni idi – ömrün gənclik yolu... Bütün atgetməz işlərinə baxmayaraq Polad Ruslandan ayrı dura bilmirdi. Digər tələbə yoldaşlarına da qəribə gəlirdi ki, Polad kimi utancaq, bir az qaraqa¬baq oğlanla, deyib-gülən, diribaş Ruslanın xasiyyəti necə tutur. Amma yola gedirdilər. Onlar ən gərgin məqamlarda bir-birinə güzəşt etməyi bacarırdılar. Elə buna görə də gərgin mübahisələrin sonu əsasən sülhlə bitirdi.

Ruslan eşidəndə ki, Poladın anası rayondan gələcək, dərhal dostunun yanını kəsdirər, onu maşına basıb, vağzala aparar, Səkinə xalanın avtobusdan düşməsini gözləyər, elə ki, arvad maşından düşdü, özünü irəli verib onunla mehriban, isti görüşərdi. Bu, Poladı çox mütəəssir eləyirdi. Deməli o, böyük şəhərdə tək deyil. Açığı, ayrı bir şeyə görə yox, məhz bu dostluğa görə Polada həsəd aparan, qibtə edən də az deyildi. Poladın yerinə kim olsaydı bu münasibətləri bir qədər qapalı saxlayar, önünə gizli bir pərdə çəkərdi. Amma Polad belə istəmirdi. O, Ruslanın imkanlarını əslində, bütün qrupun xeyrinə

yönəldirdi. Tələbə tədbirləri, axşam yığın-caqları, gəzintilər üçün vəsait toplananda çatışıb düzəl-mə¬yən hissə Ruslanın boynuna düşürdü. Əlbəttə, Poladın səyi nəticəsində.

Bəlkə də o olmasaydı dostu təkəbbür və lovğalıq girdabında boğulardı. Sanki Polad Ruslanı özünə göstərən bir güzgü idi. Ruslan cızığından çıxanda, daha doğrusu, hərəkətində, danışığında xətaya yol verəndə, gözü qeyri-ixtiyari Poladı gəzirdi. «Polad bilsə batdım». Poladın xəbər tutmağı isə qəzanın sayının artması demək idi. Bir sözlə, Ruslan siftə vaxtlarla müqayisədə dostunun olduqca şərəfli, şərəfli olduğu qədər də əziyyətli əməyi nəticəsində xeyli dəyişmiş, ipə-sapa yatan olmuşdu. Daha ondan soruşan yox idi ki, niyə yeddi yana yeriyir, topa-topa pulu hardan alır və nə üçün o pulları necə gəldi ora-bura səpələyir.

Ruslan yeni dərs ilinə yeni «Mersedes»lə qoşuldu. Universitetin qarşı həyətində maşınların xüsusi dayanacaq yerləri var idi. Qoluna qırmızı bağlamış, orta yaşlı, həmişə üzü tüklü Rəhim kişi Ruslana ayrıca yer saxlayırdı. Elə birinci dərs günü kişinin cibinə bircə ədəd şax-şax «göy kağız» basmışdı. Əhvalat belə olmuşdu: Ruslan dayanacağa yetişib maşını boş yerdə əylədi. Elə bu an qara rəngli bir «Nissan» burnunu onun maşınının arxasına diriyib siqnal verdi, yəni bura mənimdir.

Rəhim kişi özünü çatdırdı:

– Ay oğul, maşını geri ver, buranın yiyəsi var.

– Necə yiyəsi var, bu gündən buranın yiyəsi mənəm.

Kişi ağzını açmağa macal tapmamış Ruslan pişik cəldliyi ilə bayaq dediyimiz şax-şax «göy kağız»ı kişinin cibinə basdı. Həm də elə tərzdə

elədi ki, bunu ancaq Rəhim özü gördü və hətta pulun «yüzlük» dollar olduğunu da sezə bildi.

Rəhim bir az çarəsiz görkəmdə, çal saqqalını qaşıya-qaşıya «Nissan»ın sürücüsünə yaxınlaşdı:

– Ay oğul, incimə, o, rektorluqdan kağız gətirib. İndən belə maşını burda saxlayacaq.

Dərs başlayıb bitənə qədər kağız əhvalatını bütün qrup bildi.

Tənəffüsdə tələbələr koridorda qaynaşanda qızlardan biri əlindəki dəftəri yüngülcə Ruslanın ciyninə toxundurub:

– O nə kağızdır elə, rektorluqdan aparmısan? – deyə soruşdu.

Ruslan səsinin qalın yerinə salıb, digər tələbələrin də eşidəcəyi bir tərzdə əhvalatı yenidən danışdı.

Rəhim kişi səhv salırdı. İcazə kağızı rektorluqdan deyildi, daha mötəbər yerdən idi. Onu maması papanın diplomatından «çəkib» vermişdi Ruslana.

Beləcə dostumuz dayanacaqdakı həmin yeri, demək olar ki, özəl¬ləş¬dir¬di. Ay başa çatan kimi, hələ bir az da qalmış, Rəhim kişi ona balaca xəbərdarlıq eləyərdi:

– A bala, sənin icazə kağızının vaxtı qurtarıb, – deyir və gülürdü.

Ruslan da öz işini bilirdi.

O, digər işləri, problemləri də, özü demiş, «icazə kağızları» ilə asanca həll edirdi. Amma hərdən diliacı qızların, xüsusən Afətin atma¬ca¬ları olmayaydı. Bir də gördün əndamıyanmış dedi:

– Sənin «icazə kağız»ların hər şeyi həll edər. Ancaq məhəbbət məsələsində onlar keçmir… Bəlkə düz demirəm?

Nəinki sevgi-məhəbbət məsələsində, bəzən digər işlərdə də iş tərsə düşürdü, «yaxud ranq qalxırdı», aça bilmədiyi qapılar da olurdu. Elə ki, iş daşa dirənib qəlizləşirdi, onda anasını yanlayıb yağlı dilini işə salırdı:

– Mama, əmiyə çıxa bilərsən?

Belə vaxtlarda mamasının dalağı sancır, o saatca bilirdi ki, məsələ ciddidir. Ya kiminsə maşınını əzib, üstəlik də polisə müqavimət göstərib, iş qəlizləşib. Bütün nə ki, sənədi var, tutub əlindən alıblar... Hətta elə olurdu ki, ağlına gələni, dilinə gətirməyə qorxurdu – iraq olsun, birdən adam-zad vurmuş olar, ha.

... Ruslanın böyük qardaşı tutulmuşdu. Ən yüksək məbləğdə pul da onu həbsxanadan çıxara bilməmişdi. Bəli, sehirli kağızların gücsüz olduğu məqamlar var. O vaxt da «əmiyə çıxmışdılar». Əmi isə qardaşı oğlunun şərəf¬siz əməlindən əsəbiləşdiyi üçün nə rayon prokuroruna, nə də istintaq işçilərinə tapşırmışdı. Beləcə oğlan əlli-ayaqlı getmişdi.

... Ruslan qurcalandı. Deyəsən, Afətin sözləri ona bərk yer eləmişdi. Həyasıza bax e... Necə yəni məhəbbəti pulla almaq olmaz. Bu da şərəfsiz iş deyil ki, əmisi qanun adamlarına ağız aça bilməsin. Burada nə var axı? İndiki qızların gözləri parıltıdan dərhal qamaşır. Onlar üçün xoşbəxtlik qapısı parıltının, sərvətin o üzündədir. Gözqamaşdıran parıltının özü elə qapıdır. Bu qapını aça bilsən, ordan o tərəfə cənnət başlayır. Rahat həyat, xarici maşın, gəzintilər... Nə qədər ki, gec deyil, bu Afətin cavabını versin gərək.

– Başın haqqı, Afa, bircə yol əlimi cibimə salanda yüz dünya gözəlinin huşu başından çıxır.

– Boş-boş guruldamağa nə var ey? De görüm indiyəcən bu qrupdakı qızların hansının gözünün qamaşdığını hiss edibsən?

O sözü çürüyü çıxana qədər uzadacaqdı. Amma susmalı oldu. Çünki həmin an Polad başını döndərib eyhamla ona baxdı. Canından gizilti keçdi: «Hə, deyəsən yenə qəzaya yaxınlaşıram». Və özünü yığışdırdı. Ürəyinin dərinliyində isə belə qərar verdi ki, qrupdakı qızlardan nə qədər uzaq durub, onlarla çənə-boğaz eləməsə, bir o qədər yaxşıdır.

– Babam danışarmış ki, – Ruslan maşında yol gedəndə Polada dedi, – hər adamı qoruyan bir qaraçuxa var. O qaraçuxa adamı təhlükələrdən, bəla¬lardan adladır. Poladik, belə ki qoruyursan, deməli, sən də mənim qara-çu-xamsan…

Polad Ruslanın üzünə baxdı. O çöhrədəki səmimiyyəti görməmək üçün adam gərək kor ola. Bircə an içində Polad güclü bir qürur hissi duydu. Deyəsən, zəhməti hədər getməyib, dostu əməlli-başlı ağıllanıb, nələrisə düşünə bilir.

– Gəlsənə, arada gedək kəndə, Səkinə ananı yoxlayaq. Onun bizdən başqa kimi var ki? Allaha da xoş gedər…

– Elə yaxşı olar… – Polad dilləndi.

– Nə vaxt? – Ruslan soruşdu.

Polad vaxtı müəyyənləşdirdi:

– Gələn həftə olar?

– Nöş olmur, alə, istəyirsən indi gedək…

– Ağ eləmə…

Söhbət bitdi. Və elə bu an Poladın xəyalında Lənkərana bitişik balaca qəsəbənin qırağında, dənizə yaxın tərəfdəki evlərinin eyvanı canlandı. O, eyvanda durub, səhər-səhər günəş işığı gözlərini qamaşdırır. Qeyri-iradi kirpiklərini yumub-açdı… Elə bil həqiqətən də gözlərinə gün düşürdü.

Günəş dənizdən boylanır. Şüalar suda çimib, təzədən onların eyvanına yönəlir, – bir günəş dənizdə, bir günəş də göydə. Polad saatlarla iki günəşə baxardı, anasına göstərərdi: – ana, bax, iki günəş var. Biri mənim, bəs biri kimin?

– Elə ikisi də sənin, – Səkinə oğluna cavab verərdi. Sonra günəşlərdən biri yox olardı. Polad da deyərdi ki, bəs günəşin biri yoxdur. Anası  söyləyərdi, var, niyə yoxdur. Onlar birləşdilər, – qadın oğlunu bağrına basıb, davam eləyirdi, – bax, belə səninlə mənim kimi birləşib ana-bala oldular.

Polad soruşardı:

– Atam da bizə birləşsəydi lap yaxşı olardı, hə, ana?

– Hə… – ana özünü birtəhər sıxardı ki, kövrəlib ağlamasın…

Polad ananın, təbiətin, qohum-əqrabanın nəvazişi altında böyüyür və böyüdükcə bir almanın o biri parası kimi atasına oxşayırdı. Yerişi, duruşu, danışığı, ağıl və təmkini ilə…

… İndi Ruslanı da götürüb anasının görüşünə getmək, səhərin açılmasını gözləyib, o iki günəşə birlikdə tamaşa etmək, uşaqlıq çağlarında anası ilə arasında olan söhbətləri təzədən xatırlamaq xoşbəxtlik deyil, bəs nədi?

Xəyalın bir ucu yenə də Ruslanla bağlıydı. İndi də düşünürdü ki, Ruslan onun dost-doğma qardaşıdı, bir ayrısı deyil. Və günəvərli eyvan¬larında indiki yaşda durub dənizdən boylanan günəşə baxarkən onunla birgə olmaq səlahiyyətinə görə heç kim Ruslanı əvəz edə bilməz. O, dostunun başından bir tükün də əskik olmasını istəmir. Elə buna görə də hər dəfə ayrılanda az qala qardaş, ata ifalıyla deyir:

– Maşını yavaş sür, ha… qaydanı pozma.

– Narahat olma, qardaş, – Ruslan dərhal dillənirdi, – bizim «qaişniklər» bircə «icazə kağızına» məəttəldir ki, şəhərin bu başından o başına səni «provajat» eləsin. Özü də biri qabağınca, biri də arxanca.

Polad tutulurdu. Ruslan zarafata salırdı:

– Mısmırığını sallama, görürsən ki, böyründəyəm, özüm də ki, sağ-salamat.

– Düzdü, qəza baş verməyib, ancaq ola bilər, neyləyim, nigaran qalıram. Xəta heç nədən yaranır.

Şübhəsiz ki, onun sözündəki canıyananlığı Ruslan hiss edir, bu söz¬lərin istəkdən irəli gəldiyini duyurdu. Əsası o idi ki, Polad onun hərəkət¬lə¬rinə əv¬vəlki kimi acıq və hikkə ilə yanaşmırdı. Bu, doğma bir adamın narahatlığı idi.

Artıq o bu saf təbiətli kənd balasını ovlamaq üçün bərə pusmurdu, artıq  onun ürəyi Ruslanın ovcunun içində döyünürdü. Polad maşından düşüb getmək istəyəndə, o, «Mersedes»i  yolun lap qırağına verdi. Cəld qapını açıb çıxdı. Özünü dostuna çatdırıb əlini boynuna saldı.

– Sağ ol, dostum, – dedi, – sən təkcə mənim üçün yox, mən elə belə də bilirdim… həm də qardaşım üçün narahat olursan. Atam-anam onun da iyisini məndən alırlar. Gərək özümü qoruyum… Düz deyirsən… Allahın altında mən də sənin kimi kəlləli olaydım…

Kəlləli… yəni ağıllı… Əlbəttə, baş hamıda var. Amma ağıllı baş gəzdirmək Allahın xoşbəxtliyidir. Çox da ki, atası evə hər həftə bir diplo¬mat dolusu pul gətirir. Görəsən o pula kiminsə ağlını satın almaq, yaxud kiminsə, lap elə Poladın ağıllı başını kəsib öz bədəninə bitişdirmək mümkün olardımı?

Namusu itə atırsan yemir, namus da elə ağılın bir qırığıdır, yaxud ağıl quşun nəyinə gərək, onun əvəzinə bir ovuc dən səp, qoy kef eləsin. Əgər ağıl və ürəklə yaşamaq birinə qismət olmayıbsa, yaxşı, bəs onda necə olsun?

Göy rəngli «icazə kağızları» ilə işi asta-asta yoluna qoymağın nəyi pisdi... Ruslan hələ də onun böyrünü kəsdirib oturmuşdu.

Baxışları toqquşdu. Ruslanın canından üşütmə keçdi. Narazı baxışındakı qarmaqarışıq fikirləri sonacan oxuyur. Amma Poladın canına Ruslanın qollarından bir mərhəmət, istilik axırdı. Hər halda Polada belə gəlirdi.

– Heç səndən ayrılmaq istəmirəm, Polad! Bəlkə gedək sizə, ayından-oyundan bir şey tapıb toqqanın altını bərkidərik.

– Lap yaxşı olar, – Polad sevincək dilləndi.

Yolüstü dörd yumurta, bir az pomidor, yüz qramlıq bükülü yağ aldılar. İki çörək götürdülər. Çörəklər isti idi.

– İnanırsan, qardaş, könlümə yumurta-pomidor çığırtması düşmüşdü. Görəsən, buna niyə «çığırtma» deyirlər?

Polad çətin dərsi izah edirmiş kimi müdrikcəsinə dedi:

– Bunu bilməyə nə var ki, söz hadisə və predmetin şəklidir. Əvvəlcə tavanın içinə yağ atırsan, yağ balaca dağ olan kimi üstünə doğranmış pomidor tökürsən. Tavada bir hay-küy qopur, gəl görəsən. Bax o hay-küyün adından götürülüb «çığırtma».

Dördüncü mərtəbədə Poladın qaldığı ev rahat və sakit idi. O, yeməyi bişirmək üçün mətbəxə keçdi, Ruslan duzu süfrəyə qoyub çörək doğradı.

– Hə, əsas məsələni həll elədik, çörəklə duz hazırdı, tez elə yeməyi gətir. İşin çoxunu sən görürsən ha…

– Yox Ruslan, işin əsasını sən görmüsən. Əsas məsələ çörək və duzdur.

Polad yenə diqqətlə onun gözlərinə baxdı. Nə var ki, burda? Hər dəqiqə baş verən adi iş. Hər gün  yer üzündə milyon süfrədə, milyon dəfə çörək və duz qoyurlar. İndi heç onları süfrədən yığışdırmırlar. Elə stolun üstündə qalır. Bəs nədən Polad onun duzu gətirməsinə, çörəyi doğrayıb süfrəyə düzməsinə belə xüsusi əhəmiyyət verir? Məsələ burasındadır ki, Ruslan səliqə ilə çörəyi doğrayıb süfrənin bir tərəfinə, duzu da o biri tərəfdən çörəyin yanına qoyanda da Polad dostuna diqqətlə, həm də hörmət və məhəbbətlə baxmışdı. Ruslan fikir verməmişdi. Əslində, bütün bunlar heç onun eyninə də deyildi. Guya nə böyük iş olub, bir kömbə çörəyi doğrayasan və bunu da qaldırıb qoyasan «Quran» kitabının yanına.

Onların ata-baba kəndlərində yaşlı adamlar çörəyi, duzu müqəddəs sayırdılar. Elə indi də Ruslanın yolu təsadüfən kəndlərinə düşəndə, xeyir-şər məclislərində iştirak edəndə adamların dilindən dəqiqə-başı «duz-çörək» sözünü eşidir. Hər dəfə də ona qəribə gəlir. Görəsən, insanlar nə üçün çörəyi-duzu belə əziz tuturlar?

Duzu çöldən yığırlar. Hətta çirkablı, neft qarışıq sulardan. Heylə yerdən yığılan duz hardan müqəddəs oldu? Lap olsun Naxçıvan duzu. Uzaq başı ehtiyac üçündü də… Bədənin adi tələbatıdı…

Bu duz, çörək söhbəti ki, var ha, – Ruslan düşünürdü – qurama işdi. Getdin gördün quzu, neyləyirsən istiotu, duzu? Ye, qalsın quruca buynuzu. Yoxsa ki, it ilində bir yerdə olmuşam səninlə, nədi-nədi duz

dadmışam, çörək kəsmişəm. Daha mən oldum sənin qulun. Nə əmr eləsən, baş üstə. Yox bir, başıma kəndir sal, hara istəyirsən, dart apar.

Hələ ki, pomidor-yumurta çığırtması ortada yoxdu, süfrədə olan duzdu, çörəkdi və bir də Ruslandı ki, içiynən danışır. Bax elə bu Polad, orda, mətbəxdə çığırtmanın böyrünü kəsdirib ki, qabın dibi yanmasın, bir dəfə duz dadıb, çörək kəsdiyi adam üçün canını verər. Bədbəxt oğlu bu dünyaya kor gəlib, kor da gedəcək.

Ruslan onu səslədi:

– Ə, qaqaş, camış əti bişirirsən? Nooldu sənin çığırtman?

Polad mətbəxdən səsləndi:

– İkicə dəqiqə də hövsələni bas, yağa düşsün, gətirirəm…

Bəlkə də Ruslan da öz məntiqində haqlıdı.

Ölkənin hər yerindən adamlar axışır Bakıya. Gələndə necə təmiz niyyətlə gəlirlər, saf və duru olurlar. Ancaq elə ki, gəldi çatdı Bakıya, bu Qaradağ duzundan daddı, Abşeron duzunu topa-topa çimdikləyib kənara ataraq and içməyə başladı, onda aləm qarışır bir-birinə. Bu duzlu andın çox vaxt saxta olduğunu bəlkə də hamı bilir, heç kim də açıb-ağartmır. O andın içində bircə çimdik duz qədər həqiqət yoxdu. Bununla belə bir bəni-bəşər dilini tərpədib demir ki, ay qardaş, sənin danışdığının hamısı yalan-palandı, nahaqca yerə duzu hayıf eləmə. Və beləcə insanlar ən çətin problemlərini bir-birinin sifətinə duz çimdikləri ata-ata yoluna qoyurlar. Vaxt ötür, zaman dəyişir, adamların yalançı andları duza-çörəyə qarışıb qana hopur.

Çığırtma buğlana-buğlana gəlib çörəklə duzun arasında özünə yer elədi. Ruslan qaynar tavaya elə girişdi ki, elə bil yüz ilin acıdı. Di gəl, qaynar tavaya iştahlı hücum uzun çəkmədi. Səbəb də bu idi ki, Polad bu

gözəl çığırtmadan hələ bircə loxma almamışdı. Çəngəlin qulpundan yapışıb anlaşılmaz nəzərlərlə ona baxırdı:

– Niyə yemirsən, alə, – dilləndi, – istəyirsən hamısını mən yeyib partlayım?..

Polad:

– Yeyərəm indi, halal xoşun olsun…

Ruslanın ağzı ilə beyni eyni vaxtda işləyirdi, yeyir və Poladın halına acıyırdı. Bu zalımın balası qəribə adamdır. Allah bilir, bəlkə ürəyimi üzümdən oxuyur. Əgər belədirsə, onda mən batdım. Onda universitetə gəlmək nədi ey, gərək bu şəhərdən baş götürüb qaçım. Amma bu çığırtma əladı ha. Dəyyusun başı kimi, əli də qızıldı.

Polad da yeməyə başlamışdı. Dinib-danışmadan çığırtmanı çəngəllə götürür, gah da çörəyini tavaya batırıb yeyirdi.

Əslində iki gənci nəinki duz-çörək kəsdikləri birotaqlı kirayə evdə, həm də nəhəng yer kürəsində birləşdirən yeganə bir şey vardısa, o da altı yanıb qaralmış, içindəki çığırtmanın bir hissəsi yeyilmiş bu tava idi. Onlar başqa-başqa adamlar idilər, onları nə çörək, nə duz, nə çığırtma, heç fələk də birləşdirə bilməzdi. Məsələnin ayrı cür yox, məhz belə olduğunu Ruslan Poladdan daha yaxşı anlayırdı. Polad tər-təmizdi, elə bu çığırtma kimi dadlıdı, ondan istifadə etmək lazımdı. İstifadə… Həyat nədi ki? İstifadə fürsəti!

Artıq o düşüncələrini yox, düşüncələr Ruslanı idarə edirdi. Bu əbləh çörəyi, duzu kitaba – «Quran»a döndərib. Bilmir ki, dünyanın Allahı da, imanı da, dini də puldan çox-çox aşağıdadı. Əvvəllər atamı adam yerinə qoyub salam verən yox idi. Hərə bir cür dodaq büzürdü. Amma şirkətə ilişəndən sonra vəziyyət dəyişdi, hava dəyişdi. Hava e, a kişinin oğlu,

hava. Atam əvvəllər ilboyu üşüyərdi, büzüşə-büzüşə gəzərdi. Vəziyyət babatlaşan kimi köhnə libaslar getdi işinin dalınca. Yeni, təzə dəbdə paltarlar atamı dəyişdi, anamı dəyişdi. Maşın dəyişdi, mən də oldum sayılıb-seçilən cayıl. İndi şəhərdə məni tanımayan yoxdu. Hər dəfə QAİ saxlayanda ayrı bir söz demir. Bilirsən, Rusik, deyir, heç nə lazım deyil, saxladıq ki, papanın, əminin əhvalını soruşaq.

Çığırtma əriyirdi yavaş-yavaş. Hər kəs çörəyi öz səmtinə uyğun çığırtmanın yağına batırır, qatı yerindən çəngələ vurur, dinməzcə yeyirdilər. Polad necə başlamışdı, eləcə ağır-ağır çeynək vururdu. Tay-tuşların hamısı bilir ki, Ruslan yeyimcil oğlandır, doydum deməz. Onun davranışları da yeməyi kimidi, çox ütükdür. Ən müxtəlif işlərin dalınca düşür. Simsar qızların, oğlanların müxtəlif problemlərini, ilişikli məsələ¬lərini asanca həll edir. Bəzən evə, gecə keçəndən sonra qayıdır. Həll etdiyi məsələlərin qonaqlığı barlarda, dalda-bucaq kafelərdə səhərəcən çəkir.

Qəribədir ki, uşaqların hamısı onu istəyir. Dəfələrlə olub ki, dərsə gəlməsin. Gələndə də gözləri şişib-qızarmış olur. Yuxusuzluq, yorğunluq isə onu əldən salmır. Polad onun bu hərəkətlərini bəyənmirdi. Onu öz qəlbindəki Ruslan kimi görmək istəyirdi. Poladın ağlına nə gəldisə, tikəsini udub çəngəli tavanın qırağına qoyaraq:

– Ruslan, bəlkə hərdən gələsən dərsə burda hazırlaşaq? – dedi.

– Ay sənin qadan alaram, Poladik. Sən necə ağıllı oğlansanmış. And olsun bu çörəyə, duza, ağlıma indicə gəldi ki, sənin bu balaca kirayə otağın həyatdı, həyat…

– Qurbandı sənə, qardaş. – Polad qısaca cavab verdi.

Ruslan Poladın razılığından sonra lap vəcdə gəldi. Deməli Polad onu başa düşür. Hər adam belə arif ola bilməz. Yaxşı deyiblər ki, qanana can qurban.

– Polad, bizim kəndimizdə avam adamlara bilirsən nə deyirlər? Bir dəfə demişdim ey... – Ruslan ciddi şəkildə soruşdu.

Hə, bir dəfə Ruslan nə münasibətləsə bu sözü Afətin acığına işlətmişdi deyəsən. Heç şübhəsiz ki, dostumuz həddini aşmışdı, o sözü işlətmişdi və əvəzinə Afətdən yaxşıca cavab almışdı. Yaxşı deyirlər ki, nə tökərsən aşına, o da çıxar qaşığına. Ruslan Afətə demişdi:

– Nənəm demiş, sən niyə key Balaxanım kimi üzümə baxıb, gözünü döyürsən?

Afət:

– Adə, key Balaxanım kimdi, xalandı, yoxsa bibindi? – deyib üzünü döndərmişdi ondan.

Bu da onun payı. İndi nə desin, desin ki, key Balaxanım adlı qohumu var, ya yoxdur. Gündəlik informasiyanı internetdən alan, bəlkə ata-babalarının, qohum-əqrabalarının tərcümeyi-halını, ünvanlarını da internetdən axtaran yeni nəslin nümayəndələrinə bu sözün mənası tam aydın ola bilərdimi? Yox...

Ruslan həmişə olduğu kimi mübahisəni öz xeyrinə yekunlaşdırmaq fikriylə dedi:

– Xeyir, ay qız, mənim xalam, bibim key Balaxanım deyil. Sənin kimi sözü anlamayıb, gözünü döyənlərə key Balaxanım deyirlər.

Afət təslim olmaq istəmədi:

– Sən key Balaxanımı burda yox, getdiyin yerlərdə axtar.

Söhbət burda yekunlaşa bilərdi. Əgər bu dəfə Polad dillənib işə qarışmasaydı. Polad dedi:

– İstəsən internetə baxa bilərsən, Afa, orda «Balaxanım» sözünün mənası var.

– Sən hardan bilirsən internetdə nə var, nə yox, – indi Afət iki cəbhədə döyüşürdü – sənin ki, kompyuterin yoxdur. Sən ki, internetə girə bilmir¬sən...

Ruslan Polada göz vurub dedi:

– Darıxma, Afət, tezliklə Polad da kompyuter alar, internetin bu başından ölü girib, o başından diri çıxar…

Sonralar Balaxanım məsələsi əhatə dairəsini bir qədər də genişləndi¬rərək bir mübahisə, zarafat tematikası şəklində hökm sürdü.

… İndi Ruslanın nəzərində həmin «Key Balaxanım» elə Poladın özü idi; yox, tələsib səhvə yol verirəm, bunu başa salanacan adam qocalar. Buna necə anladım ki, şəhərin məşhur otellərinə gedə bilmərəm. Sənin bu darkeş otağına mənim gözüm bu kitab-dəftərə görə düşməyib.

Ruslan düşünür, babat yerlərə girib-çıxmaq, oralara canan aparmaq müşkül işdi, hər tərəfdən göz qoyub güdürlər adamı. İndi neyləyim? Bir xaraba tapıb başımı soxmalıyam də. Yoxsa elə bilirsən kitab-dəftərim var, şəllənib gələcəyəm bura. Səhərdən axşamacan it kimi mır-mır mırıldayıb imtahan-zaçota hazırlaşacağam. Avara, mənə guşə lazımdı e, guşə. Özün də evin açarını qoy ovcuma, bas bayıra. Ayıbdı buralarda görükməyin. Koroğlu demişkən, igid gərək yar sevməyə, özü tək gedə, tək gedə… balam heyyy…

Polad elə «key Balaxanım» idi ki, durmuşdu. O yenə də xəyalında Ruslanı tərbiyələndirib yüksək kondisiyaya çatdırmaqla məşğul idi.

Düşünürdü ki, əgər dostu hər gün onlara gəlsə, həm məcbur olub dərsini oxuyacaq, həm də şəhəri veyillənib pis-pis yerlərə dürtülməkdən xilas olacaq.

Yemək mərasimi bitdi. İki tələbə dostun, iki yoldaşın evdə bir-birilə söhbətləşə-söhbətləşə və daha çox da öz içərilərində danışa-danışa yedikləri naharın sonunda yenə də Ruslan cəld tərpəndi. Səliqəylə çörəyi, duzu götürüb mətbəxə apardı. Bu, Polada çox xoş gəldi. Bir daha əmin oldu ki, Ruslanın çörəyə, duza belə ehtiram göstərməsi onun daxili aləminin saflığı, təmizliyi ilə bağlıdır.

Hə, bu oğlana bel bağlamaq olar, – düşünürdü Polad, – nə olsun ki, varlıdır, imkanlı ailədəndir. Onsuz da əlində olan pulun xeyli hissəsini qrup uşaqlarına xərcləyir. Hamıya da köməyi dəyir. Heç Afət də düz eləmir ki, hərdən onu sancır. Onun təbiətilə, xarakterilə pul arasında bağlılıq axtarır. Xeyr, pul dostunun mənəviyyatını korlaya bilməz. Çünki saf oğlandır. Nəyi pisdi ki, pulun da gücünü nəzərə alır. Bəşər övladı pulu havayı yerə kəşf etməyib ki?! İndi pulun mahiyyəti haqqında ağır-ağır düşünüb baş yormağa lüzum yoxdur. Əgər pul adamlar arasında etibar yaradıb, mənəvi nizam-intizamı qorumağa xidmət edirsə, nə üçün ona nifrət bəsləməliyik?!

Həmişə varlı da olub, kasıb da. Bu zümrələrin arasında olan ziddiyyət müharibələr, vətəndaş qarşıdurmaları yaradıb.

Polad tarixi babat bilirdi. İstəsəydi lap qədimlərdən başlayıb, üzü bəri gələr, yenicə tarixə qovuşmuş Sovet hökumətinin siyasi siması haqqında maraqlı fikirlər söyləyə bilərdi. Ancaq bu şirin, qəşəng oğlan, bir yerdə qərar tutmağı bacarmayan Rusik belə dərin söz-söhbətlərə

baş qoşan deyil. Hətta belə söhbətlər bir qədər uzansa, o, başını götürüb qaçar.

Ruslan asta-asta mənzili gəzdi. Mənzil deyəndə ki, bir otaq idi. Amma mətbəxi, eyvanı da vardı. Lazım gəlsə, eyvanda da bir çarpayı qoymaq olardı. Hamamı da ki, kefin istəyəndə kibriti çək, beş dəqiqədən sonra kalonkanın isti suyu hazırdı.

– Hə qardaş, mən gedirəm, yəqin sabah gələrəm. Dərsdən çıxıb qaçarıq bura. Bazarlıq mənlikdi. Nə var ey orda-burda, kef çəkək özümüzçün.

Polad qapıdan çıxıb dördüncü mərtəbədən üzüaşağı düşən Ruslanın arxasınca baxdı. Üçüncü mərtəbənin pilləkənini dönməmiş Ruslan geri dönüb sağ əlini sıxdı. Yumruğunu Polada sarı yellədi. Eyni tərzdə Polad da onu xoş nəzərləri və düyülmüş yumruğu ilə yola saldı. Yəni ki, həmişə belə, sıx birləşmiş yumruq kimi olaq…

«Bu Ruslan necə qəribə oğlandır. Birdən az qalırsan, nifrət edəsən, birdən də elə zənn edirsən ki, lap ata bir, ana bir doğma qardaşındır. Rəhmətlik nənəmin, anamın duaları ofsanata düşüb. Allah bu şəhərdə məni tək qoymamaq üçün onu yetirib. Ruslan mənim üçün lap ölümə gedər, elə mən də.

***

Polad dəhlizdən otağa keçdi. Dostunun bir az bundan irəli əyləşdiyi stula baxdı. Birdən az qala gözləri dolacaqdı. Kövrəldi, arzuladı ki, kaş indi anası yanında olaydı. Ondan bircə kəlmə söz soruşmaq istəyirdi…

Hansı sözü soruşmaq istəyirdi, bilmirdi. Bəlkə məktub yazsın. Məktub yazmağa həmişə ərinirdi. Yaxşı ki, arada telefonla danışa bilirdi.

Amma nədənsə indiki düşüncələrini, fərəhini yazmaq istəyirdi. Xəbəri də olmadı ki, vərəqi qabağına necə çəkdi, qələmi necə götürdü. İlk cümlələri yaz¬mağa çətinlik çəkmədi. Sonra fikrin, düşüncənin sürəti yazını üstələdi. Qələm əlində «dondu». Bu sözləri isə yazmırdı, deyəsən pıçıldayırdı. «Doğma qardaşım olsaydı, məni Ruslandan artıq istəyə bilərdimi? Özün bilirsən, Ruslan məni nə qədər çox istəyir. Şərt onda deyil ki, hamı eyni səviyyədə oxumalıdır, hamının xasiyyəti eyni olmalıdır. Ruslan doğru deyir. Mənim kimi oxumaq heç ona lazım deyil. Biznesdə, işdə elə sahələr var çevik düşüncə tələb olunur, əlavə münasibət qurmaq bacarığı tələb olunur. Ruslan internetə girib dünyanın hər yeri ilə danışa bilir. Özü demiş Amerikanın Federal Təhqiqatlar Bürosunun arxivinə də girir. Mən də ayda bir dəfə güc-bəla ilə kompyuter kursunda bir saat çalış¬mağa vaxt tapıram. Öyrəndiyim nədir; «Vindovs»la «Kuark»ın arasında vurnuxuram. O, göz qırpımında internetlə dünyanı gəzib qayıdır. İndi hansımız daha bilikliyik? Elmi kitablardan, müəllimlərdən öyrənən sənin oğlun Polad, yoxsa mənim dostum, elə özünü sənin oğlun hesab edən Ruslan? Həyatı yaxşı bilən, çox asanlıqla ünsiyyət yaradan, asanca münasibət qura bilən Ruslan? Yəqin ki, gələcək insanların mənim kimi adamlara da ehtiyacı olacaq və heç şübhəsiz o insanlar elə Ruslan tipində olacaqlar. İdarə edən, qazanc gətirən, biznesi quran adamlar cəmiyyətin ürəyidir. Əgər ürək beyinə qan verməsə, beyin işləyə bilməz. Görünür mənim kimilər Ruslan¬dan asılı olacağıq. Məsələ kimin yuxarı, kimin aşağı olmağında deyil. Məsələ ondadır ki, biz bir-birimizi düzgün başa düşək. Ürək və beyin bir-birini tənzim edə bilsin. Əslində, bizim hamımızın bir anası var. O da cəmiyyətdir. Cəmiyyətdə öz övladlarına qarşı doğmalıq olsa, hər kəs öz

yerini düzgün tapar. Və biz, yəni cəmiyyətin övladları əziyyət çəkməz, yaşamaq əzab olmaz. Ruslanın timsalında özümə güclü dayaq görürəm, onun ürəyinin təmizliyinə inanıram. İnanıram ki, gələcəkdə Ruslana bacardığım sahələrdə hər cür köməklik göstərə biləcəyəm. Bəl¬kə də, elmlə bağlı ən güclü layihələrimin təminatçısı Ruslan olacaq. Sən fikir çəkmə, ana, tez-tez mənə xatırladırsan ki, tanıdığın, bildi¬yin bir qızla yaxınlıq elə, ata-anasını tanı, öz təbiətimizə, halımıza uyğun bir qız bəyən. Onunla evlənərsən, ailə qurarsan. Ana, səni yaxşı başa düşürəm. Tələsirsən ki, nəvən dünyaya gəlsin. Axı mən universiteti başa vurmalı¬yam. Başqa planlarım da var. Magistra¬tu¬ranı qurtarmalıyam. Yarımçıq elm heç kimə lazım deyil. Təkcə özümüzü fikirləşmirəm. Mən həm də cəmiyyə¬ti¬mizi fikirləşirəm, biz cəmiyyəti gözəlləşdirəcək, insanların bir-birinə inamını təmin edəcəyik. Bu inam bizim həyatımızın mənası olacaq. Mən kəndimizdə, doğma qəsəbəmizdə, lap Xəzərin sahilində sənin üçün ən yaxşı ev tikəcəyəm. Atamdan qalan əşyaları ayrıca bir otaqda saxlayacam. Gələcək həyat yoldaşım məni sevdiyi qədər də, səni əzizləyəcək. Mən dostumla əl-ələ verib həm onun üçün, həm də özüm üçün mənalı bir həyatın qurulmasında bütün iradəmlə, sənin istəklərinə uyğun sədaqətlə çalışacağam.

Polad xəyalındakı, əslində adi danışıqdan uzaq, pafoslu, inşayabənzər məktubunu bitirdi. Qələm bayaqkı kimi əlində donub qalmışdı. Kağız da masanın üstündə idi. Yuxarıda bir neçə cümlə yazmışdı: «Salam, ana, necəsən? Bakının havaları həmişəki kimi küləklidir. Külək olmasa şəhərin hisi-tozu adamı boğar. Ancaq bəzən külək elə əsir ki, onun yönünü bilmək olmur. Bir anın içində həm

qarşıdan, həm arxadan əsir. Dəxli yoxdur, dözə bilsən, səmti bilinməyən küləklər ötəcək, sakitlə¬şəcək.

Ana, Ruslan həmişə mənim yanımdadır. Mən tək deyiləm. Səni oğlun qədər sevən bir dostum var…»

Yazdığı elə bu idi. Nə üçün bayaq xəyalında düzüb-qoşduğu fikirləri indi kağıza köçürə bilmir. Yazdığını göndərsinmi? Xeyr, buna nə ehtiyac var. Onsuz da Ruslanla danışıb, bu günlərdə anasını görməyə gedəcək. Sabah şənbədir, birisi gün bazar. Gedərik, inşallah…

Polad düşüncələrini kağıza köçürə bilməyib deyə başını çox sındırmadı. Yazdığı da, xəyali nitqi də onsuz da ona gülməli və lüzumsuz göründü. Kağızı götürüb cırmaq istədi. Cıra bilmədi. Nə fikirləşdisə, yarımçıq məktubu, əgər ona məktub demək mümkün idisə, iki qatlayıb pəncərənin qabağındakı kitabın arasına qoydu. Bu, bir şairin ölümündən sonra nəşr olunan kitabı idi. Müəllifin gündəliklərindən, şeirlərindən, həyatdan vaxtsız getmiş gənc şairi tanıyanların təəssüratlarından ibarət toplu idi. Kitabın üz qabığı narıncıya çalırdı. Üfüqün yanan fonunda al-qırmızı rəngli buludların arasında gənc şairin hərbi libasda şəkli dururdu. O, tələbəykən könüllü cəbhəyə getmiş və Ağdərə döyüşlərində həlak olmuşdu. Nə üçün həmin kağızı bu kitabın arasına qoydu? Başqa bir səbəb yoxdu. Sadəcə əlinin altında olan kitab bu idi. Axşam oxuyurdu və kitabın şəhid qəhrəmanını Hötenin gənc Verteri ilə müqayisə edirdi. Yaşasaydı böyük sənətkar olardı. Onda güclü cazibə və enerji vardı. Heyf, nakam gedib. Birdən Polada elə gəldi ki, bu gənc Ve¬ter də, Ağdərədə həlak olan şair oğlan da elə onun özüdür. Məlum vəziy¬yət¬lərdə o da elə onlar kimi hərəkət edər, onların yaşadığı duyğuları təkrarən yaşayardı.

Əlbəttə, buna tam təminat vermək olmaz. Bəzən konkret situasiyada insanı yaranmış şəraitin hökmü idarə edir.

Polad bir də kitabın üz qabığına baxdı. Onun ruhu nə dərəcədə şəhid şairin ruhuna uyğun idi? Aydın, parlaq gözlər, sıx qara saçlar, açıq yaxa, hərbi formanın altından görünən yaşıl köynək… Polad özünü bir anlığa bu gəncin yerinə qoydu. Görəsən o da könüllü ərizə yazıb, elə indiki təhsil səviyyəsini buraxıb döyüşə gedərdimi? Yaxud birdən Ruslana desəydi ki, gəl birlikdə könüllü döyüşə gedək, yəqin Ruslan ona belə cavab verərdi:

– Poladik, sənin ağlın var? Bizim təhsilimiz lazımdır ölkəyə. Biz bacarığımızı səngərdə yox, burada göstərməliyik. Ölkəni düşməndən azad edən, qoruyan tapılar. Əvvəla, avtomat tutmağın qaydasını bilmirəm. İkinci də ki, havayı gülləyə qurban getmək istəmirəm. O qədər oğlanlar öldü, Qarabağı azad eləyə bildik məgər?

– Rusik, sən elə demə, hamımız Vətənin zərrələriyik. Birdən Vətən çağırsa, ona yox deməyə necə dilimiz gələr?

– Alə, sən nə danışırsan? – Ruslan şirin Bakı ləhcəsiylə məzəli komediya qəhrəmanı tərzində dillənərdi. – Sən tez-tez şeirlərini deyirsən ha… 30-cu illərdə güllələnib, onun sözü olmasın, gündən-günə gözəlləşən bu həyatdan necə əl çəkim, alə, olar? Alə, bu qızları görmürsən, ətirli çiçəklər kimi adamın başını havalandırır? Bəs onların maral yerişi necə olsun? Biz onları qoyub hara gedək, ay tupoy?

Poladın qaşları çatıldı. Sanki Ruslan böyründəydi, onunla üzbəüz dayanıb danışırdı. Yəqin zarafat eləyir. Ümumiyyətlə, onun danışığı belədir. Bəzən nəyi ciddi, nəyi zarafatla dediyi bilinmir. O məni tək qoymaz. Hara getsəm gedər. Lap cəbhəyə də gedər…

Yeməyin təsiri idi, ya fikirdəndi, hiss etdi ki, yorulub. Yatmaq istədi. Hava qaralmışdı. Nəsə oxumaq istəmədi. Şalvarını soyunub stolun söykənəcəyindən asdı və qab-qacaqları yumağı da sabaha saxladı. Yatağına girdi.

***

Həftənin birinci günü Ruslan dərsin lap axırına yetişdi. Zalım balası elə bil İnsan Haqları Komissiyasından gəlib, ali məktəbdə monitorinq aparır. Guya üç qoşa saatı buraxan bu deyil heç.

– Bir saatdan çoxdu Universitetin başına fırlanıram ki, dərsdən çıxasan. Canuva yazığın gəlsin, a kişi, səkkiz saat dərsdə oturmaq olar? Arada bir-iki saatı posadkaya salsan dünya dağılmaz ki…

Sifətlərini bir-birinə dayayıb görüşdülər. Qapıdan çıxıb geniş yola tərəf yeriyəndə Ruslan kənardan eşidən olmasın deyə, səsini qısa-qısa dedi:

– Alə, Piterdən, lap Ağ dənizin sahillərindən bir «lebed» uçub gəlib. Evin açarını mənə ver. – Ruslan çox qətiyyətlə dedi. Sanki Poladın nitqi tutuldu. Dinə bilmirdi. Bu, nə danışır? Bu başa düşmür ki, dedik¬lə-rinin mənası nədir? Axı qonşular var. Görüb eləyən olsa, adamların üzünə necə baxaram?!

Polad bu əbləhə karlı cavab vermək üçün özünü toplaya bilmirdi. Rus¬lan isə onun qolundan tutub çəkə-çəkə maşına tərəf aparırdı. Sanki Ruslan macal vermək istəmirdi ki, Polad dərindən düşünsün: «İdiotun biridir. Əgər azca ləng tərpənsəm filosofluq eliyib, məni borclu çıxaracaq…»

Ruslan bir az da ona tərəf sıxıldı, çiyni çiyninə toxundu.

– Hə, nə oldu, qıymırsan mənə açarı?

– Ruslan, bir dəqiqə aman ver, dərsdən çıxmışam, başım hərlənir – Polad dedi.

İndi ona nə desin? Desin vermirəm? Ya bəlkə məni də özünlə bazlığa apar, desin? Belə sözü əlbəttə, ölər, dilinə gətirməz. Açarı verməmək isə nə müddətdən bəri davam edən, hələ tam bərkiməmiş tələbə dostluğuna balta çalmaq olardı... Ruslan onun nə qədər əziyyətini çəkib. Yalan olmasın az vaxtda bir ton duz-çörək kəsiblər. Son macallar az qala yatmaqları da birdi. Yetənə-yetib, yetməyənə bir daş atan Ruslan Polada başqalarından fərqli, bakılılar demiş, alayı bir hörmət və ehtiram bəslə¬mişdi? Bəs o məktub nəydi, anasına yazıb Ruslanı qardaş adlandırmaq istəyirdi. Bəs keçən il Poladın anası şəhərə gələndə, qəfil xəstələnəndə onun köməyi kim oldu? Ruslandan başqa ona kim əl yetirdi? Yoxsa yazıq arvad bir il bundan əvvəl dünyasını dəyişərdi. Yeməkdən zəhərlənmişdi. Neçə saat xəstəxanada sistem altında qaldı. O müddət ərzində Ruslan bir dəqiqə də olsun Poladın yanından aralanmadı. Poladın anasını öz maşının¬da təcili yardım məntəqəsinə çatdırdı. Hələ şəhərin işıqforundan qadağan siqnallarını pozaraq şütüməsi, yol nəzarətçilərinə əhəmiyyət verməməsi – bütün bunlar hamısı gəlib onun gözünün önündən keçdi. İndi Poladın gözünün qabağında həmin qırmızı işıqlar yanırdı. Polad ha istəyirdi ki, işıqforun qırmızı işığı sönsün, yaşıl yansın. Amma indi bu qırmızı işıq sönsə də, yenə qırmızı yanırdı. Baş həkimin yanına kim getdi? Yenə Ruslan. Həkimləri cani-dildən işləməyə kim məcbur etdi, nə məcbur etdi: Ruslan, Ruslanın səxavəti...

Bir sözlə, o vaxt üç gün ağır xəstə olan ananı həyata, ananın özü demiş, Tanrıdan aşağı Ruslan qaytarmışdı.

Bəs onda Polad necə Ruslana bir açarı qıymaya bilər? Bəs bunların müqabilində o, Ruslana neyləmişdi?! Yazdığı kurs işləri cəhənnəm olsun, nə böyük iş imiş. Onsuz da kurs işi oldu-olmadı Ruslan çulunu sudan çıxarır.

Çörəyin, duzun nə olduğunu bilən belə həssas dostun xırda bir xahişinə yox demək olar? Qonşular görəcək… Cəhənnəmə görsünlər. Dost yolunda fədakarlığın irisi-xırdası yoxdu. O dostunun qolundan yapışan əlini naümid qaytara bilməz…

Səkinə ana hərdən gəlib şəhərdə oğlunun yanında qalırdı və Ruslan da bunu bilirdi. Amma onu da bilirdi ki, indi rayona təzə gedib. Lənkəranda xəstə bacısı var. Yəqin on-on beş gündən tez gəlməyəcək. Səkinəni rayona yola salmağa Ruslanın «Mersedes»i ilə aparmışdılar. Bakı vağzalında Astaraya gedən qatarın sonuncu fitindən əvvəl Poladdan qabaq Ruslanı qucaqlamışdı arvad:

– Ay bala, Tanrının əli həmişə kürəyində olsun. Sən Poladın qardaşısan. Bəlkə, lap qardaşdan artıqsan. Qardaş da qardaşa nə etdiyini, haracan etdiyini bilir.

Ananın kövrəlməsi, sonra Poladı da çəkib Ruslanla yan-yana qucaq¬la¬ması hər ikisini mütəəssir eləmişdi. Onda Ruslan da öz növbəsində bir oğul hərarəti, övlad məhəbbəti ilə Səkinə ananı qucaqlamışdı:

– Səkinə xala, siz anam qədər əzizsiniz. Darıxmayın, tezliklə imta¬han¬larımız qurtarar, Poladla birlikdə gələrəm Lənkərana. Əla olacaq, oraların dənizinə baxarıq, deyirlər çox təmiz suyu olur.

Lənkəranı gəzərik. Sən də bizə qayğanaq bişirərsən. Kütüm alarıq, ləvəngi düzəldərsən.

– Ləvəngi bizim tərəflərdə süfrənin bəzəyidi. Amma hanı? Qabaqlar hər tin başı satılan kütüm qəhətə çıxıb. Dənizi elə günə qoyublar ki, bərəkəti qaçıb, vallah.

– Sən narahat olma, xala. Kütüm bizlikdir. Yerini bilirik. Xüsusi icazə kağızları var, göstərən kimi görürsən ki, dipdiri kütüm salafan torbada cabalayır…

Poladı gülmək tutdu. Ruslan da dostuna göz vurub qımışdı, Səkinə xala qırışmalların him-cimindən bir mətləb anlamayıb dəqiqləşdirmək istədi:

– O necə icazə kağızıdır?

Bu dəfə Polad dilləndi:

– Ay ana, sən baş açan kağız deyil, heç mənlik də deyil. Həmən kağızlar Ruslandadı, özü bilir.

Səkinə:

– Təki xatalı iş olmasın, bala, – dedi. – Allah kürəyinizdə dursun.

– Biz sarıdan arxayın ol. – Ruslan Səkinə ananı bir də yüngülcə sıxdı özünə sarı. Ana da əllərini əkiz balalarına toxunurmuş kimi, Ruslanın və Poladın saçlarında gəzdirdi.

– Daha burda boş yerə vaxtınızı itirməyin. Gedin, indi qatar tərpənir, Allah üstünüzdə yar olsun. Məndən arxayın olun, gedəcəm, – dedi.

Sinirləri tarıma çəkilmişdi. Puslan cavab gözləyirdi. Əlbəttə, inadkarlığının hər necə olsa da, nəticə verəcəyinə inanırdı. Polad

anasının nəfəsi dəyən evə, şəhvətlə yanan Ruslanı özü demiş, köçəri bir quşla, Ağ dənizdən uçub gəlmiş bir fahişə ilə necə buraxsın? Axı qonum-qonşular onun anasının necə ifallı, abırlı-həyalı qadın olduğunu bilirlər. Onun özünə də hörmətlə yanaşırlar. Çünki bu kasıb tələbə mərifət, ləyaqət sahibidir. Qız anaları onu «ay oğul, ay Polad», – deyə çağırır. Bəlkə öz qızlarını bir gün Poladın yanında görmək istəyəcəklər. Bəs belə olan halda deməz¬lərmi ki, bu da suyun lal axanı?

Nə olar, olar. Allah özü imkan verməz ki, dilə-dişə düşüm. Bütün tərəddüdlərdən sonra əlini cibinə salıb açarı çıxardanda yenə də nigarançılığının səbəbini izah etməli oldu:

– Ruslan, ağlına başqa şey gəlməsin, bir az qonşulardan çəkinirəm. Allah eləməmiş, bilərlər, bizim barəmizdə nə düşünərlər?

Ruslan açarı tez qamarlayıb cibinə basdı. Dedi:

– Alə, mənim maşınım mənim üçün evdir, istirahət yeridir, sanatoriyadır. Görünməyən, gözdən-qulaqdan uzaq daldalıqdır. Amma neyləyim, görmürsən, bircə günün içində maşınlardan örtükləri, qara pərdələri yığışdırdılar… Alə, inanmırsan ki, maşın qala divarlı ev kimi bir şeydir? Pərdəsi, plyonkası yerində olsa, bir açara görə minnət də çəkmərəm, vallah.

Bütün bu həyasız və dəhşətli nitqi eşidərkən Poladı acıq, hirs boğsa da, dözürdü, səbrini cilovlayırdı.

Ruslan aradakı gərginliyi bir qədər yumşaltmaq üçün dostunun qəlbinin sarı siminə toxunmaq istədi:

– Bilirsən, qardaş canı, əldən buraxılası deyil, yoxsa ağız açmazdım. – Poladın diqqətlə dinlədiyini görüb əlavə elədi – Burada adamlar var ki, belə «lebed»lər üçün Bakının lap yarısını versə, yenə «uf» deməz.

Qiyməti yoxdu, özü boyda qızıldı, ləldi, cəvahirdi. Əgər onu əldən buraxsam əbləh olaram… Poladik, bu zalım balası ağlımı elə alıb, qorxuram vurulam ona, qalmasa, uçub getsə, gərək mən də qanadlanam, onun arxasınca uçam. İnanırsan ki, ürəyimin başı titrəyir?

Ruslanın sözlərindəki yalanı və səmimiyyəti ayıra bilmədi. Az qala bu hissin təsiri ilə güləcəkdi də. Xoş bir təbəssüm sifətinə yayıldı. Bu Rus¬lanı ikiqat sevindirdi.

– Qardaş, sən mənim sonuncu ümid yerim idin. Bilirdim ki, başa düşəcəksən. – O, Poladın sağ əlindən tutub sıxdı.

– Nigaran qalma, qardaş, səni başa düşürəm. Amma gəl belə edək. Mən evdə olsam yaxşıdır. Siz də əl-ayaq çəkiləndən sonra gələrsiniz. Sonra da mən çıxıb gedərəm. Qonşular da duyuq düşməzlər. Yoxsa, anam bilsə, gərək mən…

– Ruslan Poladın sözünü yarımçıq kəsdi:

– Darıxma, heç kim bilməz və sən necə desən, elə də edərik. Açarın biri səndə, biri də məndə qalar, hər ehtimala qarşı.

Razılaşdılar. Ruslan üç gün dalbadal axşam düşəndən, əl-ayaq çəkiləndən sonra sarışın saçlı, Ağ dəniz lebedi ilə Poladgilin pillələrini üzüyuxarı qalxdı. Amma oğrun-oğrun, həyəcanla. Görünür, hələ də Poladik tərəfdən arxayınçılığı yox idi. O hər dəfə gələndə dördüncü mərtəbənin açıq qapısını yavaşca aralayıb içəri keçir və tez də qapını bağlayırdılar. Onların gəlişindən bir az sonra Polad evdən çıxıb gedir, lap gecə yarısından sonra qayıdırdı.

Çalışırdı ki, əlavə sualları özünə yaxın buraxmasın. Əməlini götür-qoy etmirdi. Qorxurdu ki, əməlini götür-qoy etsə, bu sualları düyünçələyib Ruslanın başına çırpacaq. O, bunu istəmirdi.

Üç gün idi Polad küçələrdə veyillənirdi. Nə qədər acı olsa da, özü-özünə təlqin etməyə çalışırdı ki, bu hərəkəti dost fədakarlığıdır. Dost fədəkarlığından isə gərək məmnunluq duyasan.

Nəhayət, axırıncı gecə qonaqlar qalxıb getmək istəyəndə Ruslan lebedini göstərdi:

– Heç demədin necədir?

– Nə deyəcəyəm. Pis olsaydı, bu qədər böyük fədakarlığa gücüm çatmazdı. – Poladın qımışması Ruslanı sevindirdi. İndi özündən razı halda, qalibanə əda ilə Polada baxırdı.

– Heyf ki, Ağ dənizin lebedi sabah uçub gedir.

– Bəs sən nə fikirləşirsən, Ruslan, – Polad dilləndi.

– Elə bir fikirləşməyim yoxdur. Mən çiçəkləri tər vaxtı xoşlayıram. Elə ki, xışmaladın, əzildi, tulla getsin.

– Bəs sən deyirdin… – Polad təəccübləndi. Lakin sözünün arxasını gətirmədi.

– Alə, sən nə maraqlı adamsan. Söz ağızdan çıxan kimi elə bilirsən qanun layihəsidir. Burax, getsin. Bilirsən nə var, qaqaş? Bu canı yanmış lebed, səndən kəsir, deyir ölürəm onunçun. Keçməli mal deyil. Daha mənim də onunla görüləsi bir işim qalmayıb. Bəlkə bir-iki gecə də səninlə qalsın. Haçan getmək istəyər, aparıb yola salarıq.

Ruslan danışırdı. Poladın dişi bağırsağını kəsirdi, elə bil bədəninə diri ilan buraxmışdılar. Gül kimi cavan oğlan yüz ilin eyş-işrət düşkününə xas sözlər deyirdi. Yəni Ruslan idimi bu?

– Nə danışırsan, ağlını başına yığ. Dost-dostun… Polad yenə sözünü yarımçıq qoydu… Elə eləmə ki…

Məsələ aydındı. Ruslan həddini aşıb. Atəşkəs yaratmağın yeganə şansı ən qısa vaxt ərzində «lebed»in qanadından yapışıb uçmaqdı. Otağın dəhşətli dərəcədə ağır havasını (bəlkə də otaqda hava bir o qədər də ağır deyildi, sadəcə boğulurdu o) dəyişmək üçün əli əsə-əsə pəncərələri açan Polad qurumsaq dostu ilə fahişə lebedin nə vaxt qapını açıb sürətli addımlarla birinci mərtəbəyə enməklərindən, «Mersedes»ə əyləşməylə¬rin¬dən xəbəri olmadı. Maşın səsi də eşitmədi heç…

Polad otağa bitişik hamama girəndə gözlərinə inanmadı. Çirkli, sabunlu su az qala daşıb otağa axacaqdı. Axı hamamın suaxarı yox idi. Ruslan deyəsən «ağ lebed»ini çimizdiribmiş…

Polad Ruslanı söyə-söyə səhərin gözü açılana qədər döşəmədəki sabunlu, çirkli suyu zorla qurutdu…

***

Yeni ilə üç-dörd gün qalmış Bakıya qar yağdı. Şəhərin hisi heç, maşınların tüstüsü və qara asfaltın sanki min ildən sonra da səngiməyəcək hərarəti kəpənək kimi ağ qar dənəciklərinə imkan vermirdi ki, yerə düşsün. Bununla belə, Yasamal tərəflərdə, Şamaxı yolunda qar torpağa əməlli-başlı oturmuşdu. Şimaldan əsən külək sərt soyuq gətirirdi. O sərt isti cənub şəhərinə düşən qar sevincini bir qədər də çox yaşatmaq üçün külə¬yin qoltuğuna qısılıb buralara gəlmişdi. Universitetə getmək hesaba alınmasa Polad evdən bayıra çıxmırdı. Dərsdən qayıdan kimi bir tikə tapdı¬ğından yeyir və yanını yerə basıb imtahanlarına hazırlaşırdı. Sessi¬ya¬nın başlanmasına az qalırdı. Yeni il

tətilindən sonra şəhərin sıxlığı təzədən artmışdı. Şəhər adamları üçün qışın, yayın elə fərqi yoxdur. Metro var, dükanlarda quş südü, can dərmanı. Bakıdan fərqli olaraq Poladın nənəsinin kəndində, uzaq dağların arasında, meşənin içində yerləşən balaca kənddə adamlar bütün tədarüklərini yayda görür, mal-qara üçün yem toplayır, özlərinin qış azuqələrini yığırdılar. Elə ki, payızın ortalarında dağlara qar yağmağa başladı, az sonra soyuqlar bütün hökmüylə qılıncını siyirdi, onda adamlar da siftə həyət-bacaya, bir az keçmiş, evin isti içinə çəkilirlər. Ehtiyat azuqələrinə qane olaraq yaşayan kənd camaatı bir də Novruzqabağı, kəndarası yollar açılanda sanki iki-üç dəfə çoxalır, xeyir iş tədarükü görmək, bağ-bostana yeni dirrik salmaq üçün hərəkətə gəlirdi. Polad yayda da, qışda da nənəsigilin dağ kəndində günlər, aylar keçirmiş, bu insanların həyat tərzinə bələd olmuşdu. O, bütün mənalarda bilirdi ki, kənd nədi, şəhər nədi. Poladı düşündürən qəribəliklərdən biri də bu idi ki, niyə kənd adamlarının, demək olar hamısı bir-birini tanıyır, salamsız-kəlamsız ötüşmür, zarafatlaşır, şəhər isə qışda da, yayda da qaynaşsa da, avtobuslar, küçələr, metrolar saatbasaat dolub-boşalsa da, biri o birinin kitabını oxumur, biri küçənin ortasında yıxılıb ölsün, o birinin vecinə deyil. Kənddə isə bir mısmırıqlı adam görsələr soruşurlar ki, nə olub, dəryada gəmin batıb? O da dərdini açıb danışır, köməyə ehtiyac olsa dilə gətirir.

Yaxşı ki, Bakı kənd deyil və yaxşı ki, Polad kənddə deyil, Bakıda yaşayır. Yoxsa bir dəyyus dostun həyasız xidməti sayəsində o çirkin əhvalat baş verəndən sonra, iki həftə ərzində büzüşə-büzüşə, utanıb yerə girə-girə dərsə gedib dərsdən qayıdan Polad bu sıxıntıları Bakıda deyil, kənddə keçirsəydi, iraq olsun, bir ağbirçək, bir ağsaqqal qabağına

çıxıb soruşsaydı ki, ay Polad, sənə nə üz verib, niyə fikir dəryasına qərq olmusan, niyə saralıb solmusan, onda bu bədbəxt tələbə nə cavab verərdi? Kəsiri var, namxuda kəlləlidi, pulu yoxdu, Allah anasının, qohumların canını sağ eləsin, korluq çəkməyə qoymurlar. İndi o soruşan adama nə təhər desin ki, mənim bir oğraş tələbə yoldaşım var, mən də ondan betər oğraşam. Nə təhər desin ki, ay ata, ay ana, mən başı beton dirəyinə dəyib əzilən Dəmirin oğlu Polad, biqeyrətəm, açarımı itirmişəm, itirməmişəm ey, könül xoşluğuynan onu bir binamusun əlinə vermişəm ki, gedib mənim halal qapımı açsın, dərənin fahişəsini bassın özüm və anam yatan kravata…

***

İl boyu çəkilən zəhmətin nəticəsi pis olmadı. Polad imtahanları oynaya-oynaya verdi. Bir dəfə hansı imtahandan sonrasa Afət onun növbəti «beş»ini təbrik eləyəndə dedi ki, Ruslana baş qoşandan sonra səndən əlimi üzmüşdüm. Qoçaq adamsan ki, onun ütüsündən salamat çıxdın. Amma, Polad, ondan sənə dost olmaz. Nə qədər ki, gec deyil, aralaş. Yoxsa, sonra gec olar…

Afət imkan düşən kimi Ruslanı sancır, onun davranışından xoşu gəlmədiyini büruzə verirdi. Məlum olanda ki, o da hansı yollasa imtahanın hamısını verib, kəsiri yoxdu, Afət qrupun bir nömrəli ərköyününü «mükafatlandırdı». Amma axırıncı imtahan günü qiymət kitabçalarını paylayan Afət Ruslanınkını saymazyana qaytararaq:

– Belə çıxır ki, Poladla sənin başının çəkisi eynidir, – dedi.

Ruslan söz altında qalmadı:

– Nədi, – dedi, – mənim qiymətlərimə it dəyib? Uşaqların çoxu qiyməti pulnan, tapşırıqla alır, sənin də gözün məni görür. Əsas odur ki, kəsirim yoxdu, qiymətlərim də heç səninkindən pis deyil…

Sözünün sırf Afətə aid olan hissəsini isə dilə gətirmədi. İş belə getsə, nə zamansa qəzəblənib özündən çıxsa o bu dikbaş qızın lap gözünün içinə deyərdi ki, Afıçka, sənin dərdindən isə ölən yoxdu, əgər istəsəydim çoxdan sənin saqqızını oğurlayıb «Mersedes»ə basar, üst dodağındakı qara xalı sorub qanadardım»...

Polad dostunun qıza dikilmiş gözlərindəki nifrəti sezdi. Hiss olunmadan yaxına gəldi. Afətlə Ruslanın arasında dayandı. Elə bil ağsaqqal kişiydi və iki dalaşqan uşağı bir-birindən ayıracaqdı. Əslində, Ruslan artıq bir söz deməmişdi. Sadəcə qızın cavabını vermişdi. Özünü isə yüz faiz haqlı sanırdı. Bəs bu Polada nə düşüb? Bu da mənim dostum, arxam, dirəyim. Qarnının nə ağrısı varsa, qıza qəmhar çıxır. Ruslan Polada iri açılmış gözlərlə baxır və bu dəfə də narazı qaldığını sözsüz-kəlməsiz anlatmaq istəyirdi. Münaqişəni dərinləşdirməyə lüzum vardımı? Əlbəttə yox, vəziyyəti hər zaman məhz özünə sərf edən qaydada dəyərləndirən Ruslan üstüörtülü «razborkaya» yekun vurdu:

– Yaxşı, Afət xanım, hamının başı qızıl olmaz ki?! Qiymətlərin eyni olmağına baxma, dost mənimdi, bilirəm ki, Polad kəllədi. Amma bu o demək deyil ki, bizim kimilərin başı kəsilib atılmalıdı…

Bu söz hamısını güldürdü. Polada göz vurub dedi:

– Getdik, alə…

***

İmtahanlardan sonra Ruslan çoxdan verdiyi sözə əməl etdi. Bu dəfə «Mersedes» dostları tərkinə alaraq Lənkərana şütüyürdü. Poladgilə qonaq gedirdilər. Bir-iki gün qalandan sonra Səkinə xalanı da götürüb şəhərə qayıdacaqdılar. Planları belə idi. Amma nədənsə irəliki günlərdən fərqli olaraq çoxdan gözlədiyi bu səfər Poladın ürəyindən deyildi. Dostu dil boğaza qoymur, yol boyu lətifə danışırdı. Poladın dalğınlığı ötüb keçmir, demək olar ki, susurdu. Niyə? Özü də bilmirdi. Nə olub ona? Za¬çot kitabçası əhvalatından sonra Afətin xəyalı gözünün qabağından getmir. Əslində, əhvalat Ruslanın da yadından çıxmırdı. Kim Afəti necə qavrayır, onun hərəkətlərinə, sözünə necə məna verir, özü bilər. Poladın Afətə xüsusi rəğbəti var. Belə mərd və dəyanətli qız əsgərə bənzəyir. O sözləri Ruslana deməyə heç kim cürət edə bilməz. Amma o, deyir. Yoxsa Afət Ruslanın paxıllığını çəkir?

Həqiqətdə isə Ruslan heç vaxt imkanlarını şişirtmir, əksinə, bu imkanlardan hamının istifadə etməsinə şərait yaradır. Düzü budur ki, o gün Afət Ruslanı təhqir etdi. Əvəzində Ruslan neylədi? Heç nə…

Hər halda qızın qız yeri var, oğlanın oğlan…

Poladın son qərarı budur ki, baş verən əhvalatın elə bir əhəmiyyəti yoxdur. Çünki Afət də kobudluq eləyir, bu kobudluğun da qabağında dilini tərpədib bir söz deməlidi Ruslan. Kim olsa Ruslan kimi hərəkət edərdi. Afətin Ruslana qarşı o cür sərt münasibət göstərməyə haqqı yoxdur. Deyəsən, Polad yavaş-yavaş düşüncələrini bürüyən buludu dağıdırdı. Ruslan Afətin əlindən əməlli-başlı yanıqlı idi. ...Sən bu meymunun hərəkətinə bax. Aparasan Afrikaya, zəncilərin arasına, kifirliyi orda da bilinər. Gör necə iddialı-iddialı danışır. Yox bir, universitet diplomu ilə dünyanı dağıdacaq. Yeri gəlsə, mənə o şoğərib

diplom lazım da deyil. Bir də ona nə düşüb ki, dəqiqəbaşı Poladla məni tutuşdurur. Ləçər bəlkə Polada vurulub? Əgər belə deyilsə niyə dəqiqə-başı ona qahmar çıxır. Yox… quzum, tor¬bada pişik var, özü də yekəsindən… Birdən bu idiot da onu sevər a?.. Ağlıva dua yazım. Mənim kimi əjdahanı qoyub, cüllüt, lüt oğlu lüt Polada meyl salan başı boş qızdan nə gözləyirsən? Dostumun da qarnının altını bilmək olmur ha… Elə bil Afətin cangüdənidi. Əşşi, Afət-mafət mənlik deyil, can onların, cəhənnəm onların. Bu işdə mən yoxam, qardaş, mən yoxam.

Doğru deyirlər ki, eyni mühitdə yaşayan insanların düşüncələrində bənzərlik bəzən maksimum həddə çatır. İnsanların bədənləri də informasiya keçiricisidir. Sanki burada bir fiziki qanunauyğunluq da mövcuddur. İki adamın arasındakı məsafə daraldıqca auralar, daxili duyğulardan qopan halə qaynayıb qovuşur, çulğalaşır. Əlbəttə, bu bir deyimdir, Allah bilir, elmi əsası var, ya yox. Amma, bəs buna nə ad verəsən ki, doğma, aktiv bir yaşam parçasından qopub gələn bu iki gəncin düşüncəsindəki faktura ən azı indiki məqamda eynidir. Onlar eyni olmuşlara, eyni həqiqətlərə əsas¬la¬naraq bir-birini müzakirə edir, baş vermiş və hər ikisinin şahidi, iştirakçısı olduğu hadisələrə görə dəyərləndirmə aparırlar. Tanış hadisələr fonunda onlar bir-birilərini dərk edirlər. Və beləcə daxili doğmalıq və bəlkə bun¬lardan heç də az əhəmiyyətli olmaya¬n fiziki yaxınlıq, məsafə azlığı imkan yaradır ki, gənclik hirsi-hikkəsi yatsın, özlərini bir şəxsiyyət olaraq anlasınlar.

İndi də bir az keçəndən sonra, sanki yanaşı oturmaqları, eyni ünvana çəkib aparan yol onları islah etdi.

Birdən Ruslan maşını əylədi, yüksək ovqatla:

– Bir çay içəkmi? Birbaşa sürəndə adam yorulur, – dedi.

– Niyə də içməyək, hara tələsirik ki, öz evimizə gedirik də… – Polad tez dilləndi.

Heç şübhəsiz, həmişə olduğu kimi çay mərasimi gəncləri qərq edən qara-qura fikirləri sonuncu nöqətsinə qədər yuyub aparacaq, bir müddət¬dən sonra onlar Səkinə ananın qapısını əkiz qardaşlar kimi açıb, ona dünyanı bəxş edəcəkdilər.

Rahat çatdılar. Səkinə hər ikisini bağrına basıb üzlərindən öpdü və çay-çörək tədarükü barədə fikirləşdi.

Axşama hələ var. Ruslan bir azdan gedəcəyini bildirdi. Dedi ki, dəy¬məli yeri var. Səkinə:

– Hara gedirsən get, amma tez qayıt ha, axşama sizə ləvəngi hazırlayacağam.

– Siz məni gözləməyin, ola bilsin, gələ bilmədim.

– Nə danışırsan, ay Ruslan, harada qalacaqsan? Evə gəlib ayrı yerdə gecələsən camaat nə deyər.

– Yox, Səkinə xala, mənim işim var, Polad bilir, – dedi və getdi.

Səhər Polad Lənkəranın ən məşhur və bahalı otelinin qabağına gəldi. Ruslan orada qalmışdı, düşüb həyətdə gəzinirdi. Görüşdülər və otelin restoranında qəlyanaltı elədilər. Sonra da üç gün Lənkəranın küçələrini o baş-bu başa ölçüb maşınla, piyada gəzib dolaşdılar. Yolda çay içmək üçün dayananda Ruslan Lənkərandakı gizli işi barədə danışmışdı. Polad bilirdi ki, Ruslanın buralarda axtardığı var.

Bununla belə incikliyini gizlədə bilmədi, dedi:

– Ruslan, anam da inciyib. Hər halda sən bizdə qalmalı idin. Qonum-qonşular yəqin indi deyirlər bunlar necə dostdur ki, öz evlərində bir tikə

çörək də kəsmədilər. Hamı bilir ki, sənin oteldə qalmaq imkanın var. Hər necə olsa, sən bizim evimizi də qəbul etməliydin axı.

– Ay Polad, niyə avam-avam danışırsan. Sən ki, mənim dərdimi bilirsən. Vallah, ürəyimin başında elə bil ki, yara yeri var. Mən o qızı unuda bilmirəm. Səkinə xala dünyanın o başında olsaydı da gələrdim. Amma kaş bura gəlməyəydim. İndi nə tapa, nə də sorağını ala bilirəm. Elə inanırdım ki, onu görəcəyəm, yerişinə, duruşuna tamaşa edəcəyəm. Görünür, əsl sevgi imiş.

Polad dinləyirdi. Və onun yanğılı sözlərini həqiqi səmiyyətin ifadəsi kimi qəbul edirdi. Birdən yadına nə düşdüsə:

– Bura bax, axı sən o vaxt demişdin ki, gəncəlidir.

– Nə danışırsan, nə gəncəli, onun dəqiq adını da, yerini də yerə-göyə, günəşə, adamlara qısqanırdım. Ona görə gizlədib gəncəli deyirdim.

Ruslan onun dalınca düz bir il sürünmüşdü. Dərdindən dəli olmuşdu. Elə qız da yumşalıb Ruslanı qəbul etmək istəyirdi. Yaxınlaşıb bir-birinin əllərinə toxunmasalar da, hörmətli salam, isti görüş dəqiqələri vardı aralarında. Hər şeyi o özü korladı.

Həmən o ismi-pünhan, indi Ruslanın dəlicə olub diyarbadiyar axtardığı qız, təsadüfən Ruslanı bax bu andır «Mersedes»in içində bir qızla öpüşdüyü yerdə görmüş, sarsılmış və ona ömürlük tüpürmüşdü. Bu biabırçı əhvalat təzə doğulan sevgini bələkdəcə məhv etmişdi.

İnadkar qız imiş. O biabırçılıqdan sonra Ruslan tərəfə gözünün ucu ilə də baxmadı. Nişanlandı və gəlin köçdü. Əslən lənkəranlı idi. Elə ora da getdi. Qız ər evinə köçəndən sonra bir dəfə Ruslanla rastlaşmışdı.

Ruslan demişdi ki, boşansan, günü bu gün səninlə evlənməyə hazıram. Təzə gəlin ona pis sözlər demiş, qınamışdı…

İndi yenə də inadından əl çəkmirdi. Əslində, elə indi də o qızı görmək üçün Lənkərana gəlib. Poladı anası ilə görüşdürmək isə onun nəzərində Allah bilir neçənci dərəcəli məsələdi…

***

Lənkəran-Bakı yolunda irəliləyən ağ «Mersedes»in içindəki adamlar nədənsə pərt idilər. Yolun xeyli hissəsini getsələr də, bir fərli söhbət alınmayıb. Səbəbi də o idi ki, Ruslan Poladgildə qalmamışdı. Gündüzlər əsas vaxtı onunla olsa da, buna bir yerdə vaxt keçirmək demək olmazdı. Çünki demək olar, günün əsas hissəsini onlar Lənkəranın küçələrində veyillənmiş, univermaq, dükan-bazar aralıqlarında dolaşmış, dörd gözlə küçədən keçən qadınlara, qızlara baxmışdılar. Ruslanın təsəvvüründə Polad da xəyalında canlandırdığı o qızı axtarmışdı. Onlar Bakıya qayıdırdılar. Səkinə xala nə sudur anlamışdısa, onlarla gəlmək istəməmişdi. Polad birtəhər yola gətirdi:

– Ruslan inciyər, ay ana, yaxşı deyil. O, bura sənə görə gəlib.

– Mən bir söz demirəm, ay bala. Ancaq bu dürüst uşağa oxşamır. Gah elə bilirsən ki, Allahın mələyidir, gah da görürsən ki, gözü-başı oynayır. Bundan ağlım bir şey kəsmir. Nə bilim, dostundur... Allah şeytanına güc verməsin. Amma yaxşı olar ki, siz özünüz gedin Bakıya, mən sonra gələrəm.

Polad təkid etdi, anası razılaşdı. Əgər anası getməsəydi, o da qalacaqdı. Bu da heç cür düz gəlmirdi. Qonaqla o boyda yol basıb

gələsən, sonra da onu tək buraxasan. Getməyinə gedirdilər, amma qanqaraçılıq ortada idi. Nə olur olsun, bu vəziyyətdə, Allah eləməmiş, Ruslan düşmən də olsa, onu tək buraxa bilməzdilər. Dostluğa sədaqətdən doğan borc hissi buna yol vermirdi.

Sadə insanlar üçün adət-ənənələr, təmizlik, sədaqət həyat tərzidir...

Ruslan da az aşın duzu deyil, bu tip adamlar üçün eqoizm başlıca həyat prinsipi olsa da, onlar reallığın damarını tutmağı bacarırlar. Bax indi Ruslan özündə bir damcı günah görmür. Burda qan qaralığına səbəb ola biləcək nə var ki? Harda mənə rahatdı, orda da yataram. İndi də ortaya istilik salmaq istəməsinin əsas səbəbi odur ki, beləcə küsülü-küsülü, əzizi ölmüş kimi Bakıya qayıtmaq ona sərf eləmir. Lap beş metr yol gedirsən, o da ömürdü. İnsan gərək iki daş arasında da özünə bir rahatlıq, könül xoşluğu yarada. Görünür elə buna görə də umu-küsünün tədricən sovrulub getməsini gözləmədən özü söhbətə nərdivan saldı:

– Deyirəm, ay xala, necə olar, onsuz da sənin bir ayağın Bakıda, bir ayağın rayondadır. İlin xeyli vaxtını Poladın yanında qalırsan. Bu saat toy etmək də elə çətin iş deyil. Ağlın nə kəsir, bəlkə Poladın başını bağlayaq. Sənin də qucağın nəvə görsün. Maşallah, lay-divar oğlandı, kəlləsi də qızıl, qızlar dəli-divanədi bunun dərdindən.

Elə bil Səkinənin qəlbinə işıq düşdü, könlü duruldu. Dinməsə də Ruslan maşının güzgüsündən gördü ki, arvadın üzü gülür.

– Nə bilim, ay bala, – ana dedi, – Allah bilən məsləhətdi, birdə ki, qardaş sənindi, özündən niyə soruşmursan?

Salyanı keçib Kürün üstündən adlayanda heykəl şirlərə baxa-baxa özünün xoş niyyəti üçün daha əsaslı dəlillər gətirmək istədi:

– Bax, görürsən bu şirləri, Polad? Həyat rəmzidir. Həyat bizim hər birimizi bu şirlər kimi parçalamağa hazırdır. Sənin mənimlə işin olmasın. Mənim oxum daşa dəyib, bəxt bir də üzümə gülər, gülməz, bilmirəm. Sən kimi gözləyirsən, anan razı, – şəhadət barmağını sinəsinə tuşladı, – mən razı…

Şirvan Milli parkına yaxın yol kənarında, ağaclar arasında əla bir «Pavilyon» var. Burada işləyənlər Ruslanı yaxşı tanıyırdılar. Hərdən yolu düşəndə həmin «Pavilyon»da dayanıb dincəlir, yanındakılara süfrə açır, pulunu artıqlaması ilə ödəyirdi. Ruslanı görən kimi «Pavilyon»un işçiləri əl-ayağa düşdülər. Onları isti bir kabinetə apardılar. Rahat yerdə əyləşdirdilər, hər cür qulluq göstərdilər.

Ruslan Polada sataşdı:

– Hə, gözəl insan, bilirsən də, burda adama ceyran kababı da verirlər. Sən gəzən ceyrandan yox aaa… gerçəkli.

Polad dostunun zarafatına zarafatla cavab verdi:

– Elə belə yerlərdə basıb yeyirlər ki, sonra ceyran tapmaq müşkül olur də…

– Ceyrana nə gəlib, alə, budu ey, Afət. Adam üzünə baxanda ürəyi ağzına gəlir. Sinifkomluqdan başqa bir işə yaramaz. İşi-peşəsi onun-bunun ağzını güdmək, qanını qaraltmaqdı.

Deyəsən ananın könlü əməlli-başlı açılmışdı. Axı Ruslan evlənmək barədə söz salmaqla nə vaxtdan bəri oğluna deməyə ehtiyatlandığı, gizli-gizli qonum-qonşu qızlarına göz yetirdiyi bir məqama, ən şirin arzularına işıq salmışdı. Vallah hər ağızda bir fal var. Allahın işini bilmək olar? Bəlkə elə indən sonra oğlu dilə gəlib bir halal südəmmişin adını tutacaq…

Yemək yeyilən vaxt Ruslan qaynanaya aid bir-birindən məzəli lətifələr danışdı. O, sadəcə lətifə söyləmirdi, əgər qaynana, yaxud gəlin lənkəranlı idisə, lənkəranlı kimi, naxçıvanlıydısa naxçıvanlı kimi, yaxud şəkili idisə, şəkili kimi, obrazların donuna girir, onların ləhcəsiylə danışır, əl-qol atıb, üz-gözünü elə şəklə salırdı ki, Səkinə uğunub gedir:

– Allah səni qorusun, yaman gözdən uzaq olasan, ay bala, – deyirdi.

Onlar Bakıya çatana qədər lətifələrin gah birini, gah o birisini yada salıb gülürdülər.

«Mersedes» Poladın kirəkeş qaldığı həyətə çatıb dayananda Ruslan sonuncu artistliyini elədi.

– Ha, indi Şəkiyə çatdux, düşə bilərsooz…

***

Mart yetişdi. Qışın soyuğu küçələrdən və insanların canından çəkilməmişdi. Anasını təzəcə yola salmışdı. Arvad gedəndə Polada tapşırmışdı ki, Ruslanın sözündən çıxmasın, onu eşitsin. Çünki Ruslan Poladın evlənmək ideyasını irəli sürmüşdü. Anaya elə bu lazım idi. Arada Polada eşitdirdi ki, rəhmətlik atasının Rusetdən onun üçün alıb gətirdiyi qır-qızılı da saxlayıb. Qızçün elə bir şey almayacaqlar. Ayrı nə lazımdırsa, hamısını özü düzəldəcək. Axır sözü də bu oldu:

– Qadan ürəyimə, sən heç nədən nigaran olma, ananın güman gələn yeri çoxdu.

Polad mart sazağının acısını sümüyündə hiss edir və düşünürdü: – Ay ana, axı hardandır sənin güman yerin? İt ilindən qalmış palto ilə bozarmış dəri kurtkanı növbələşdirib qışı başa vururam. Sən öz güman

yerindən danışırsan… Qıza nə gəlib. Bilsəm imkan var, evlənib, sabah bir tikə çörəyə görə qapılar döyməyəcəyəm, günü bu gün evlənərəm.

Polad bu düşüncələrin içərisində heç özü də bilmədi ki, dördüncü mikrorayonda quruca adı qalmış, «Pioner» kinoteatrına, üzbəüz beşmər¬tə¬bəli daş binanın həyətinə nə vaxt çatıb. Və nə vaxt gözünü binanın çıxışı¬na zilləyib. İndi bu həyətdən Sevda adlı bir qız çıxacaqdı. Afətin rəfiqələ¬rin¬dən idi. Sabir adına kitabxanada tanış olmuşdular. Pedaqoji universitetin psixologiya fakültəsinin üçüncü kursunda oxuyurdu Sevda. Həyalı bir qızdı. Afət özü Poladı çağırdı.

– Polad, gəl, tanış ol, Sevdadı. Kitabxanada tədbir keçirmək istəyirik. Yəqin sən də iştirak edəcəksən. Görək biz APU-nun psixoloqları ilə mübarizə apara bilərik? Onlar da test sualları hazırlayacaqlar, biz də. Kimin cavabı güclüdürsə, ən yüksək balları da onlar qazanacaq.

İlk görüşdəcə Poladı qaramat basmışdı, ayağı sözünə baxmır, dizləri titrəyirdi, ürəyi əsirdi.

Sevda sağollaşıb getdi. Həmin gün o, dərsdə özünə yer tapa bilmədi. Universitetdən çıxan kimi, özünü metroya saldı. Deyəsən üşüməsi təkcə soyuq hava ilə bağlı deyil, nəsə özünü birtəhər hiss edir. Demək olar, ilk tanışlıq günündən etibarən o, Sevdanı addım-addım izləyir, avtobusacan, metroyacan yola salırdı. Poladın sevdalı sevda¬sın¬dan Allahın, bir də onun özünün xəbəri vardı. Tanışlığa səbəb olan Afət nəsə sezmişdi, ya yox, bunu heç Allah da bilmirdi.

Günlər ötürdü. Gizli sevgi tarixçəsinin on günlük xronologiyası yaranmışdı. On gün. Hər günün həyəcanı yüz günə bərabər. On gün ərzində Polad əməlli-başlı sınıxmışdı.

Qərara gəldi ki, bir yol tapıb Sevdaya yaxınlaşsın. Üst-başına nəzər saldı. Səhər evdən çıxanda qapının ağzındakı güzgülü şkafın qabağında durdu. Üzü sürtülmüş dəri gödəkçəsinin abırı yox idi. Onu soyunub köhnə paltosunu geyindi.

Allah sən saxla, bozarmış, arıqladığına görə çiynini salxaq saxlayan paltonun içində kabusa oxşayırdı.

Bəs neyləsin? Görünür görüş, yaxınlaşma bu gün də baş tutan deyil…

Bəlkə, Ruslandan plaşı istəsin? Bircə günlüyə. Qaytarar. Əyni-başı nə təhər olur-olsun, bu gün o, aralıdan da olsa Sevdanı görməlidi. Yoxsa ürəyi partlayar...

***

Heç nə düşünə bilmir, onu eləcə ayaqları çəkib aparırdı. Dizləri əsə-əsə gedirdi. Titrək dizlərinin heyi azalmışdı. Orda bir pəncərə var, həsrət, intizar, sevgi pəncərəsi. Gedir ki, gözünü həmin pəncərəyə zilləsin. Bəlkə Sevda pəncərədən baxır, bəlkə onu gözləyir, bəlkə Sevdanın özünün də elə o görüşdən sonra yuxusu qarışıb, bəlkə ürəyində məni danlayır ki, a insafsız, mən özüm gəlim sənin qolundan yapışım? Utancaqlığın da bir həddi var də… Elə ağıllı göz yiyəsinin gərək dərin də məntiqi olsun. Yaxınlaşmağa özündə cəsarət tapsın…

Bu sayaq fikirləşmək ləzzət eləyirdi ona. Hətta qızın əvəzindən öz gözlərini bəzədi də; ağıllı gözlərin sahibi… Lap şairanədir. Ola bilər ki, Sevda mənim haqqımda belə düşünsün? Axı, niyə də düşünməsin? Tanıyanların hamısı, yəqin elə o da bilir ki, mən ömrümdə bir dəfə də

olsun hansısa bir qıza yaxınlaşıb artıq bir kəlmə deməmişəm… Bir də ki, qızlar həssas olur. Axı

o dünyagörüşlü qızdı daha, üçüncü kursda oxuyur, psixoloq olacaq.

Bəlkə, çox yaxına getməyim heç. Yəqin görər, özü yaxınlaşar. Axı elə nimdaş əyin-başla onun gözünə görünmək istəmirəm. Heç olmasa, sabah Ruslanı taparam… Nə olacaq, dostumdur da, plaşını bir-iki günlüyə alaram.

… Odur! Oğlan gözünə güclü işıq düşən adam kimi diksindi, Sevdadı. Qız uzaqdan avtobus dayanacağına tərəf gəlir. Dala çəkildi ki, onu görməsin. Sevda yumşaq addımlarla gedirdi. Və bu addımların həyəcanı onun ürəyini nanə yarpağı kimi əsdirirdi.

Üzü hərarətli yaza tərəf günlər sürətlə ötürdü. Havada soyuq qalsa da, qar, sis çəkilmişdi. İndi də küləkli yağışlar ara vermir, nəhayət ki, ılıq yaz havasında qızışmaq üçün həsrət çəkən sümükləri, elə qışdakı kimi sızla¬dırdı.

Polad pəncərədən baxırdı. Gözündə yuxusuzluq vardı. Narahat yat¬mış¬dı. Ayrı bir şeyə görə yox, Sevdanın fikri, xəyalı yuxusunu ərşə çəkmişdi.

Hə, bu da qız… Bəlkə anasına zəng etsin. Nə desin, desin ki, ay ana, gözün aydın, Ruslanın da canı rahat olsun, evlənmək üçün qız tapmışam. Adı Sevdadı. Yəqin soruşacaq kimlərdəndi, hardan, nə vaxt tapmışam o qızı? Əlbəttə, bu sualların hamısına o doğru-dürüst, həm də ətraflı cavab verməlidi. Halbuki o, bu sualların heç birinə ananın istəyinə uyğun cavab verə bilməz. Axı qızı tanıdığı cəmi on gündü. O da bir dəfə salamlaşıb, tanış olublar, vəssalam. Yerdə qalan vaxt Sevdanın

özü ilə yox, xəyalları ilə əriyib gedib. Nə bilsin kimlərdəndi? Bildiyi odur ki, Sevdanın xəyalı gözünün qabağına gələndə ürəyi uçunur, vəssalam!

Tək otaqda, yatağın içində uzanıb, sevgi iztirablarının ilk ağrılarını yaşayan Polad anasına qızın onu istəyib-istəmədiyini də izah edə bil¬mə¬yə¬cəkdi. Onun yeganə bir ümidi vardı. İnsanları bir-birinə, həm də gözəgörün¬məz dünya zənciri bağlayır. Yoxsa, necə ola bilər ki, qızın addımları belə onun ürəyində əks-səda versin, Sevda da bundan xəbər tutmasın. Səadət vəd edən bu addımlar məhz ona tərəf atılır və bu addımlar gec-tez iki sevən ürəyi bir-birinə qovuşduracaq. Mən özümü ona göstərməsəm də, arxasınca necə qarabaqara getdiyimi görür, ürək döyüntülərimin səsini eşidir.

Hər halda qızın ağzını arasaydı, anasıyla daha ürəkli danışardı. Amma necə yaxınlaşsın qıza. Allah bunu da belə mağmın yaradıb. Cəsarət lazımdı, cəsarət. Qəlbinin dərinliklərində isə Sevdadan hə cavabı alacağına inamı gündən-günə möhkəmlənirdi.

Təzəcə yaxınlaşmaq istəyirdi ki, Poladın xəyalı dolaşdı. Deyəsən lap ildırım çaxdı. Hələ qış qurtarmayıb. Qışda şimşək çaxmaz. Buludlar yavaş-yavaş bir-birinə qovuşar. Lap yağış olsa da, hava soyuyan kimi təzədən qara çevrilər.

Poladın yaddaşında yağış yox, qar yağmağa başladı. Afətin xəyalı hardansa peyda oldu. Onunla Sevdanın arasında dayandı. Xəyalındakı Afət həyatdakı kimi qarabəniz deyildi. Çaxan şimşəyin işığında qızın üzü nurlu, ağappaq görünürdü. Polad kötük kimi, quru ağac dirəyi kimi tərpənməz  dayanmışdı; nə irəliyə hərəkət edə bilirdi, nə də geriyə.  Bəs o, niyə Sevdaya tərəf qaçmırdı? Onun Sevdaya tərəf qaçmağına nə mane olurdu? Heç Afətə sarı getmək istəmirdi. Amma gözünü Afətdən

çəkə də bilmirdi. Bu qız ona nə qədər yaxın və doğma idi. Polad ayıra bilmirdi ki, bu əsl həyat yaşantılarıdır, yoxsa yuxudur? Axı o, açıq-aydın görür ki, otağın içindədir, qapılar da örtülü. Pəncərələri də kip bağlayıb. Demək, yuxuda deyildi. Dolaşıq xəyalların cənginə keçmişdi o. Bu labirintdən çıxmalıydı. Bunun üçün isə gərək Afətə deyəydi ki, Sevda ilə onun arasına girməsin. Ancaq Afətə bunu deyə bilmirdi. Çünki ona böyük ehtiram bəsləyirdi.

Bir anlığa Afətin yumşaq, hərarətli, incə barmaqlarını öz alnında hiss etdi. Onun saçlarını qızın incə əlləri asta-asta geriyə sığalladı. Deyəsən Afətin səsini eşidirdi:

– Sənin qızdırman var, Polad, nə olub?

İstədi ki, başını əyib Afətin köksünə qoysun. Heyi çatmadı. Kövrəldi. Qəhər yaşları onun yanaqlarından aşağı axırdı. Bu dəfə o Afətin xəyalından boylanıb dünyaya baxmaq istədi. İndi o, dünyanı Afətin gözləriylə görmək arzusundaydı. Dünya necə məkirsiz, hiyləsiz, təmiz və aydındır. Onun sadəliyi, mehribanlığı Poladı tənhalıqdan qurtarmışdı. O bu dünyada tək deyildi. Axır ki, özündə cəsarət tapdı.

– Sən nə deyirsən, Afət, hesab et ki, bir qardaş öz bacısından məsləhət alır: – Mən Sevdanı sevirəm.

Doğrudur, «sevirəm» sözü eşidilmədi, daha doğrusu dedi, ürəyində dedi. Amma səssiz «sevirəm» kəlməsini Afət eşitdi və gözləri doldu.

– Polad, sən onu sevdiyinə inanırsanmı? Əgər inanırsan, həqiqətən sevirsənsə, geri dura bilməzsən. Ancaq sənin aldanmağından qorxuram. Sənin kimi adamlara gərək heç kim yalan deməsin. Bu dünyanın adamları düşündüyün kimi deyil. Onlar öz mənafelərinə görə ən yaxın adamlarının da üstündən keçib gedərlər. Bax, sən bunu bilmirsən. Mən

bilirəm, bu dünyaya ananın gözləri ilə baxırsan. Ananla sənin aranda həmişə səmimiyyət olub, doğruluq-duzgunluk sizin Allahınızdır. Sizi yaradan da elə budur.

Polad bir az yüngülləşən kimi oldu, gözünü açıb pəncərəyə tərəf baxdı. Səhər açılırdı. Ayağa qalxıb bayıra baxdı. Alaçalpov qara oxşar yağış, hələ də yağırdı. Yuyundu, çay qızdırıb içdi, qəlyanatlı eləyib, paltarını dəyişdi. Evdən çıxanda küçədə gündəlik hərəkət tam bərpa olunmuşdu. Bəlkə, kurtkasız getsin? Yox, yağışda tamam islanar. Axşamdan hazırladığı kitab-dəftər yığılmış qovluğu qoltuğunda idi.

Hələ dərsin vaxtına qalırdı. Allaha yalvarırdı ki, auditoriyaya girəndə Afət onu görməsin, keçib bir tərəfdə otursun. Guya qız ondan soruşacaqdı ki, sən niyə gecə elə ağlayırdın? Üçüncü mərtəbənin pillələrini sürətlə qalxıb qapını açdı. Əksər tələbələr yerlərini tutmuşdular. Afət xitabət kürsüsünün qabağındakı birinci partada əyləşmişdi. Gözünü qapı tərəfə zilləmiş, sağ əlini də çənəsinə dirsək verib lal-dinməz kimisə gözləyirmiş kimi baxırdı. Poladın içəri girdiyini görəndə səksənən kimi oldu, əlini çənəsindən çəkdi. Deyəsən azca yerindən də qalxdı, ya qalxmaq istədi. O, auditoriyanın girişindəki boşluqda çox yubanmayıb, partaların arası ilə yerinə doğru addımladı. Çatıb əyləşdi. Yağış nəmləndirən qovluğun sürüşkən üzünü şalvarının dizində silib, partanın alt gözünə qoydu. Bir an sonra qovluğu yenidən götürüb açdı, kağız-kuğuzu qabağına çəkdi. Bu hal nə qədər davam edəcəkdi, bilmirdi. Bəlkə də, Afət yanına gələcəkdi. Hiss edirdi ki, qız gözlərini ondan çəkmir. Əgər zəng çalınmasaydı və müəllim qapıdan içəri girməsəydi…

Nə qədər çalışsa da, diqqətini toplaya bilmirdi. Beləcə akademik saatlar bir-birini əvəz etdi. Axır ki, sonuncu dərsdən əvvəl müəllim qapıdan çıxanda qalxıb Ruslanın yanına gəlmək istədi. Bu vaxt arxa cərgədə bir qızla nə barədəsə pıçıldaşan Ruslan qızı Poladın yanından qapıya tərəf ötürdü:

– Oldu, oldu, necə istəyirsən, elə də olacaq.

Ruslan bu sözləri elə dedi ki, qızdan başqa özgə bir kimsə eşitməsin. Amma Polad lap yaxındaydı, eşitdi. Onsuz da Ruslanın Poladdan gizli bir sözü demək olar ki, yox idi. O əlini dostunun çiyninə qoydu.

– Alə, brat, dəryada gəmilərin batıb? Sənə nə olub, alə, nə tənəffüsdə tərpənirsən, nə də dərsdən sonra gözə dəyirsən. Vallah, bu universitet axırına çıxacaq sənin. Oxumağa gəlmisən bura?

Dedi:

– Sən bura oxumağa yox, ayrı işə gəlmisən?..

– Alə, həri... mənimki diplomdu. Elə bilirsən savadla pul qazanmaq olar? Alə, kimdi savada baxan. Lap ağzından dürr tök, inandırıram səni, sənin Nizamin də, Sədin də, Hafizin də, Füzulin də, lap elə təzəcə dünyasını dəyişmiş Şəhriyarın da dirilib gəlsələr, bu dövrdən baş çıxarmayacaqlar.

Ruslan lap ağ eləyirdi. Polad əsəbi şəkildə:

– Sözünə fikir ver, Ruslan, – dedi, o kişilərin ruhunu incitmə...

O hazırlaşmışdı ki, Sevdanın görüşünə getmək üçün Ruslandan plaş istəsin. Yağış dünyanı tutub getməyəcək ki... iki-üç günə yəqin Sevda ilə münasibətlərini aydınlaşdırar. Onsuz da yaz qapının ağzını kəsdirib, havalar dəyişəcək, plaşa da ehtiyac olmayacaq...

… Bu gün anasına zəng eləməli idi. Bir məsələ ilə əlaqədar. Deyirdilər ki, Lənkəran – Liman qəsəbəsi boyunca dənizətrafı sahələri almağa başla¬yıblar. Böyük istirahət mərkəzləri tikiləcək. Onların balaca evləri də dəniz sahilindədir. Çox güman alacaqlar. Əvəzində onlara yaxşı pul veriləcək. O pula Liman qəsəbəsinin münasib yerində yer ayrılacaq, ev tikəcəklər. Deməli, Bakıda kirayə qalmaqdan canı qurtaracaq, üçotaqlı olmasa da, ikiotaqlı ev almağa pulları bəs edəcək. Əyin-başını düzəldər. İndi Bakıda sökülən evlərin hesabına özünü düzəldən ailələr çoxdur.

Amma bütün bunların hamısı nə zamansa olacaq. Polada isə plaş indi lazımdır, bax elə bu gün… Plaş dostundadı. O da ağzına gələni danışıb, onu haldan-təbdən çıxarır.

Ruslan güman etmirdi ki, heç nəyin üstündə Poladın üzü belə bozara bilər. O əli yetən stullardan birini Poladın yanına çəkib böyründə oturdu, qolunu boynuna doladı.

– Qardaş, sənin belə tez inciməyin olmaya də, – «brat» demədi, «qardaş» dedi. Onun  qardaş kəlməsi yenə də Poladı ovsunladı. İndi onun belə məhrəm, doğma səsə bərk ehtiyacı var idi.

– Sən Allah, nə olub, nəyin fikrini eləyirsən?

– Heç, elə bir iş yoxdur.

– Necə yəni yoxdur, mən görmürəm ki, sən neçə gündü «bonkrot» adamlar kimi şokdasan. Bəlkə kimsə incidib səni?

Ruslanın bu sözləri ürəkdən gəlirdi. Ona görə də səsi anbaan daha da mərhəm olur, doğmalaşırdı. Bu istilik incikliyi bir anda əridib apardı.

– Bilirsən, Ruslan, – Polad dilləndi, – mən sənə deyəcəkdim…

Ruslan dərhal:

– Nəyi deyəcəkdin, xeyirdimi? – soruşdu.

– Xeyirdi, bir qız var…

– Nə danışırsan? Axır ki, dilləndin. Alə, səni sıxışdırmasan olmur ey…

– Hə, ən birinci anama sən dedin ki, Polad evlənməlidi.

– Dedim, dedim. Nə olar ki, qızla tanış ol, gör evlənmək olar, ya yox.

– Elə mənim də fikrim budur.

Polad ürək açıqlığı ilə qız haqqında danışmağa başladı:

– Adı Sevdadır. Sən görmüsən onu…

– Hansı qızdır, alə, necə ola bilər görəm, yadımda qalmaya. Gözüm almayıbsa, deməli yönnü bir şey olmaz.

Sonuncu sözlər Poladın xoşuna gəlmədi. Amma yenə də bunu Ruslanın danışıq tərzi kimi qəbul etdi.

***

İndi zəng çalınacaq. Bircə fikir idi başında: universitetdən çıxan kimi özünü metro ilə «Sahil» bağına çatdırsın. Düzdür, xeyli yoldu. Gərək «28 May» stansiyasına gedə, ordan qatarı dəyişə, sonra gəlib «Sahil»dən çıxa və «Sahil» bağında Pedaqoji Universitetin tələbələrinin qatar-qatar ötüb keçməsini gözləyə. Bəlkə də çatmaz. Orda da dərs indi qurtarır. Görəsən bu dəfə də Sevda «Sahil» bağına tərəf gələr? Fikir vermişdi ki, onlar dərsdən çıxandan sonra «Sahil» bağında bir az ləngiyir, söhbətləşir, bəzən dəniz qırağına da gedirlər. Havanın yağmurlu, soyuq olması çox vaxt qızların dəniz seyrinə mane olmurdu. Nədənsə, bir hiss Polada diktə edirdi ki, get, heç olmasa aralıdan görərsən. İndi Polad da mühazirənin qurtar¬ma¬sını səbirsizliklə

gözləyirdi. Budur, zəng vuruldu, müəllim kürsüdən aralanıb xudahafizləşmək istəyirdi. Mərdümazar tələbələrdən kimsə sual verdi. Müəllim bir neçə dəqiqə də suala görə ləngidi. Dəqiqələr saat qədər uzanırdı. Az qalırdı ürəyi üzülsün. Gicgahları sancdı. Əlləri ilə başını ovuşdurdu. Yumruğunu düyünlədü. Elə bil kimisə əzişdirəcək. Birtəhər özünü ələ aldı. Eybi yox, bəlkə, elə xeyir burdadı.

Son iki-üç gündə ona elə gəlirdi ki, kiminsə gözü Sevdanın arxasınca dolanır və o, Poladdan qabağa düşə bilər, bununla da hər şey kəllə-mayallaq olar. Əşi, yox bir, yetir-apar deyil ki, yəqin hansısa bir oğlan «sevgi» elan etsə, düşünər, götür-qoy edər… Elə də olmalıdır. Ürəyin qapısı qıfılsız deyil ki?! Hər ürəyin öz sirri var. Asanlıqla açılmaz.

...Nə qədər dalğın olsa da, onun baxışlarını görə bildi. Afət idi, gözünü Polada zilləmişdi. Elə bil sözü vardı, həm də söz o qədər çox idi ki, iki-üç kəlmə deməklə bitməz. Polada demək istəyirdi, nədir sənin könlünü quş kimi çırpındırıb bu dünyadan aparan? Bilinmir yerdəsən, yoxsa göydə. Özündən xəbərin varmı? Havalanmısan, ay dəli!..

Demək olmazdı ki, Polad Afətə qarşı tamamilə soyuq və laqeyiddir. Siz bunu hekayətin gedişindən də bilirsiniz. Əksinə, onlar lap birinci kursdan, ilk dərs günlərindən mehriban olmuş, proqrama aid kitab, ədəbiyyat tapmaqda, tədbirlərin hazırlanmasında bir-birilərinə əl tutmuşdular. Digər tələbə yoldaşlarından fərqli olaraq Polad ona xüsusi münasibət bəsləmiş, həmişə yaxşı sözünü danışmışdı. Afətin barəsində nə düşün¬dü¬yünü deyə bilməz, bu haqda fikirləşmək, ümumiyyətlə, onun ağlına gəlməzdi. O ki qaldı özünə, bu qızla bağlı sevgiyə, əlahiddə istəyə bənzər əsaslı bir hiss keçirdiyini xatırlamır. Onun zənninə görə, Afətin diqqəti bir dost münasibəti idi. Sadəcə, o, bu tərbiyəli oğlanın

xətrini çox istəyir, onun fikirli olmasını bəlkə, bir narahatlıqla, Poladın problemləri ilə bağlayır – bəli, Afətin baxışlarını ancaq bu cür yozurdu. Yox, o qətiyyən Afəti sevə bilməzdi. Həm də hər şey gec idi artıq. Sevdanın gözəlliyi sirli bir dünyanın işığı kimi ruhuna hopmuşdu. Onun qəlbini, mənəvi dünyasını, fikrini, düşüncəsini ayrı bir gözəllik işğal etmişdi. Sevda onun yuxusuna haram qatmışdı. Neçə gündən bəri onu iztirablar üzürdü. Maraqlı idi ki, oğlan bu üzüntülərdən bezmirdi, usanmırdı. Bu iztirablar, intizarlı, həsrətli düşüncələr ona dünyanın əvəzolunmayan şirinliyini bəxş etmişdi. Və Polad şübhə etmirdi ki, bu sevgidir. Yəqin dünyanın ən gözəl sevgisi elə belə olur. Polad xəyalında neçə dəfə qanadlanıb uçur, Sevdanın evdən auditoriyaya qədər gəldiyi yollardan addım-addım ötür, hansı küçədən keçdiyini, harda, necə yeridiyini gözünün qabağına gətirir, gölməçəli yerlərdə Sevdanın ehtiyatlanıb kənara çəkilməsini gözünün önündə canlandırıb düşünürdü ki, kaş imkanım olaydı, əllərimi uzadaydım, qoy¬mayaydım sənin yeriyən ayaqların inciyə. Lap elə uzanardım ayaqlarının altında, deyərdim ki, körpü et məni, üstümdən keç. Təki sən rahat yeriyəsən. Əgər Sevda məni uca tutsa, məni özünün sevdalısı kimi qəbul eləsə, bütün ömür boyu onun istək və arzularını nəfəsindən duyaram, gözlərindən oxuyaram. Qoymaram nigarançılıq çəksin. Yox, əlbəttə, Sevda məndən pul, var-dövlət tələb etməz. Sevda məndən mənəvi sərvət istəyər. Zəngin könül arzular. Mən də ürəyimin bütün sərvətini, varını sevgiyə çevirib Sevdaya verərəm. Təki o bu sevgini uca tutsun, məni düzgün başa düşsün. Bilsin ki, mən onu özümdən, bütün dünyadan daha üstün tutacağam.

O, Sevdadan başqa yalnız bircə nəfəri bu boyda məhəbbətlə sevə bilər; anası Səkinəni. Bu iki sevgidəki çağlayış, cazibə və sehr eyni siqlətdə olsa da, mənaları fərqlidi. Necə deyərlər, ananın öz yeri, yarın öz yeri...

Bu zaman ona elə gəldi ki, anası əllərini uzadıb saçını qarışdırır, boynunu qucaqlayır, üz-gözündən öpür, başını sinəsinə sıxır.

– Ağlına-kamalına  qurban, oğul, sevginin həddi-hüdudu yoxdur, sənin sevgin mənə çox əzizdir. Sənin xoşbəxt həyatın çin olan arzularım deməkdi.

Polad xəyalən anasından üzr istəyib yenə Sevdanın ardınca «uçdu». Hara getdi, niyə birdən-birə gözümdən itdi? … və qəfil müəllim son suala cavabını yekunlaşdırıb auditoriyadan çıxmağa macal tapmamış əllidən çox tələbənin eyni anda ayağa qalxmasının gurultusu Poladı dərin, çox fikirdən ayırdı. Allah eləməmiş, birdən kimsə, lap elə Afət, onu səsləyər, nəsə bir söz soruşar. Yox, daha o bir an da yubana bilməz. Nə təhər olur olsun özünü ora yetirməlidi; «Sahil» bağına, Pedaqoji Universitetin həndəvərinə. Qapıdan çıxıb, metroya tərəf şütüyürdü ki, hər gün azından eşitdiyi səsi yenə eşitdi:

– Brat, məni nöş qoyub qaçmısan? Nə təhər çıxmağını gördüm. Cumdum e, arxanca gəldim. Alə, bu yağışda islanıb cücəyə dönərsən, gəl maşına.

– Hansı tərəfə?

– Evə getmək istəyirsən, yoxsa…

– Yox, Pedaqoji Universitetin qabağına getmək istəyərdim.

– Bilirəm, əlbəttə ora getmək istəyirsən. Nə, bilirsən indi Sevda dərs¬də¬dir, ya yox?

– Lap elə olmasa da, ora getmək istəyirəm.

– İndi fikrin nədir? Elə bu gün aç ürəyini, məsələ bitsin…

– Yox, bu gün hazır deyiləm.

– Niyə?

– Səbəbi var.

– Səbəb? Səbəb nədi, alə? Heç bilirsən Lenin nə deyib?

– Nə bilim, Leninin demədiyi söz qalıb ki?!

– Biri var, o rəhmətliyin əsas sözüdü. Lenin deyirdi ki, bu gün tezdi, sabah gec…

– İndi nə demək istəyirsən?

– Demək istəyirəm ki, məsələ bu gecə həll olunmalıdı, – Ruslan çırtıq çalıb qaşını-gözünü oynada-oynada oxudu, – Ax bu gecə, bu gecə, ax bu gecə, bu gecə, yar bu gecə, bu gecə…

Poladın indi əhvalının pərişan vaxtı, necə deyərlər, qəmişə keçdiyi bir vaxtda, bu həyasızı başından rədd eləməməsinin bir neçə olduqca ciddi səbəbi vardı. Əvvələn, bu qız, evlənmək məsələsinin şərikli müəlliflərin¬dən biri anası idisə, biri də bu idi. O biri tərəfdən təpəsinə yağış döyüb soyuqdan əsə-əsə «Sahil» metrosuna çatanacan həm islanıb sətəlcəm olar, həm də o vaxta oralarda qız qalmaz. Bu gün – sabah borc götürəcəyi plaş məsələsi isə heç də bunlardan az əhəmiyyətli deyildi. Yolun yerdə qala¬nını qaça-qaça gedib maşına təpildilər. Yağış dayanmaq bilmirdi. Küçələrdən sel gedirdi. Yaz yağışları başlayırdı. Düzdü, indiki vəziyyətdə yağış bir qədər dilxorçuluq yaradır, ümumiyyətlə isə yaxşı əlamətdi. Gülpəri (nənəsi) həmişə deyirdi ki, haçan yaz yağışla başladı, həmin il xeyir-bərəkət olar. İndi Polad Sevdanı görmək üçün nə qədər üzülsə də, bu yağışı onun zəhləsini

töksə də, yenə neçə gündən bəri ara vermədən ələnən leysanı xeyirə yozurdu.Yağış isə, heç sabah da kəsməyə bilərdi. Deməli, plaş sabah, biri gün də lazım ola bilər. Qərara gəldi ki, istəsin. Ruslan bir əli ruldan yapışıb, o biri əli isə maqnitafonu qurtdalayırdı. Polad özünü toplayıb dilləndi:

– Bilirsən, Ruslan…

Maşın yerindən tərpəndi. Şüşəsilən qabaq şüşələrə çırpılan yağış suyunu güclə silib çatdırırdı. Gözü şüşəsiləndə, qulağı Poladdaydı. Poladın astaca «bilirsən» deməsi onu ani fikirdən ayırdı. Ona görə də dərhal reaksiya verdi.

– Nəyi bilirəm, deginən bilim…

– Bilirsən ki, plaşım yoxdur, bu gün-sabah məsələ düzəldi, bəs mən onunla belə yağışda küçədə dayanıb söhbət edə bilərəm?

– Plaş almaq istəyirsən, gedək alaq…

Desəydi ki, gedək mənim üçün plaş alaq, dostu ayrı bir kəlmə işlətməz. Amma deyilməsə öz yanından kimsəyə bir çöp də verməzdi, gərək ona deyəydin ki, qardaş, mənim bu şeyə ehtiyacım var. Əgər xahiş real¬dırsa, doxsan faiz hesab elə ki, iş düzəlib. Allah insana dili nədən ötrü verib? Mən nə bilim sənin seyrək ağlından nə keçir və yaxud qarnının altında yatan nədir? Zəhmət çək, ürəyindən keçəni açıq denən, biz də gücümüz çatandan yardımçı olaq. Ruslana görə fağırlıq, ürəyindəkini dilə gətir¬mə¬mək millətin, bizim camaatın xoş güzaranını korlayan əsas səbəblərdən biridir. Bunun ən bariz nümunələrindən biri də Poladdı ki, illər boyu Mustafa demək əvəzinə, mus-mus deyib dostunu çərlədir, ürəyini üzür… Polad handan hana sözünün ardını gətirib fikrini tamamladı:

– Yox, təzə plaş istəmirəm . Bu sezon birtəhər keçinərəm. Ancaq sən öz plaşını üç günlüyə versən, pis olmaz.

– Verim də, lap elə birdəfəlik bağışlayım. Bazlıq üçün mənim plaşım yox e, maşınım da qurbandır. Hələ bir gedək, bəlkə Sevdanın böyrün¬də¬ki¬lərdən birini də mən qarmağa keçirtdim…

Dostunun yersiz danışığı yenə də Poladın yavaş-yavaş düzəlməyə başlayan ovqatını korladı. «Əlli-ayaqlı heyvandı ki, durub. Ağzının danışığını bilmir də bu avara».

Amma dinməyib, susdu. Ruslan başını döndərib dostuna baxdı və onun qırımından anladı ki, növbəti dəfə qəza törədib…

– Qardaşcanı, bilməzdim ki, xətrinə dəyər. Alə, sən mənim sözümün başına ip salma. Qızdı da, tanış olarsan, görərsən ki, ürəyincədir, evlənər¬sən, gördün ki, ürəyincə deyil, bazlıq edərsən.

Bu vaxt maşın yaraşıqlı cavan bir qadının yanından keçdi. Çətir tutmuşdu. Elə o çətirin altından da məlahətli baxışlarla «Mersedes»li gənclərə sarı baxdı, ləngimədi, ötüb-keçdi. Ruslan Poladı dümsüklədi:

– Gördün? Tayı-tuşu deyilik, onnan belə baxır. Xeyli də yaşı olar də?!.

– Əlbəttə, o, bizdən xeylaq böyük olar, – Polad dilləndi.

– Gülpəri nənənin bir yaxşı məsəli var e…

– Hansı məsəl? Onu haçan eşitmisən?

– Necə haçan, Səkinə xala deyib, sən demisən, mən də yığmışam çinədanıma. İndi bala-bala xərcləyirəm. Adamlar da elə bilir ki, kitablardan-zaddan oxumuşam.

– Di yaxşı da, ürəyimi üzmə, de görüm nə məsəldi o?

– Kütə qatsan it yeməz, arpaya atsan at, – misalı çəkdi və şaqqanaq çəkib güldü.

– Sən canın bir az tez sür. Ayrı vaxt maşını uçurdursan…

– Alə, gedək nədi, lap uçaq. Ordan qayıdandan sonra da plaşı verərəm sənə, özünü də aparıb evdə qoyaram. Uçmaq istəyirsən? Ay maşallah, – ayağını qaza basdı, dedi, – uçduq aləəə…

Maşın yağış suyunu böyür-başa, səkilərin daş köbəsinə sıçrada-sıçrada şütüdü. Az qaldı ki, Ruslanı qucaqlayıb öpsün. Necə şirin, dadlı oğlandır. Beləsinin yaxşısı da, pisi də – hamısı ləzzətlidir. Onunla daim birgə olan heç qocalmaz.

Elə bil maşının sürətinə bənd imiş. İndi Sevdanın xəyali görsənişləri dinamik bir klip sürəti ilə canlanır, tez-tez dəyişən kadrlar kimi gözünün qarşısında oynaşırdı.

Yağışlı küçələrdən şütüyən «Mersedes» Pedaqoji Universitetin tinində yüyəni qəfil çəkilmiş at kimi yırğalanıb dayandı.

– Of, gözünə dönüm, gör necə sözə baxır? – maşını təriflədi, Polada sarı dönüb, – sən bir az kor kimisən ey, əməlli bax, odur ha, tələbələr çıxıb gedirlər. Bəlkə, elə indi o da çıxır?

Polad ağzını açıb Ruslana nəsə demək istəyirdi. Söz dilinin ucunda qaldı. Nitqi tutuldu. Özünü birtəhər ələ alıb maşının qabağından keçməkdə olan iki qıza işarə ilə:

– Odur, bəri tərəfdəki Sevdadır, – pıçıldadı.

– Qardaş, doğrudan lap mələkdir, gözünə əhsən. Bunu necə tapmısan? Heç yanındakına da söz yoxdur. Sənə kor deyənin, gözü pırtlayıb düşsün ovcuna… Sözümü geri götür¬düm.

Ruslan ehtiyatla danışırdı. Qorxurdu ki, yenə işləri korlayar.

– İstəyirsən düş təklif elə, maşınla aparaq. – Ruslan Poladı təhrik etdi.

– Yox, yox, nə danışırsan, bu yağışda biabır olaram.

Həqiqətən qızlar küçəni keçib şıdırğı yağışın altında «Sahil» bağına tərəf adladılar. Çətirlərini açıb başlarına tutmuşdular. Polad hələ də qızla¬rın arxasınca baxırdı.

– Polad, – Ruslan dilləndi. – Bilirəm, sən indi düşünürsən ki, yağış olaydım, yağaydım bu qızların üstünə. Saçından, üzündən süzülüb gedəy¬dim. Elədi?

– Elədi, Ruslan, sağ ol. Ancaq balaca bir düzəlişə ehtiyac var…

– Nə düzəliş, alə, ürəyini oxumuşam sənin. Bu da mənim sağolumdu?

– Yox, düzəliş lazımdır. Qızların yox, ancaq Sevdanın başına yağaydım. Təkcə yağış kimi yox, külək, nəfəs kimi onun ruhuna sarılaydım kaş ki…

– Vallah, baş deyil e, qızıldır. Malades, mən elə bilirdim ki, sən təkcə elm dəryasısan, şairliyin də varmış sənin…

Ruslan diqqətlə Poladın başına, gözlərinə nəzər saldı. Lap elə müştəri gözüylə baxdı.

– Alə, pulun kişiliyi çata başımızı dəyişək. Fürsəti əldən buraxmaq olmaz, – əlavə elədi. – Hə, nə deyirsən, arxalarınca gedək?

– Yox, bugünlük bəsdir.

Polad o qədər sevinirdi ki, deyərdin qıza ürəyini açıb, «hə» cavabını da alıb.

Ruslan təzədən mühərriki işə salmaq istəyirdi ki, Pedaqoji Universitetin böyük qapısının ağzında, pilləkənin üstündə bir oğlanın əl-qol ata-ata qəribə hərəkətlər etdiyini gördü.

Şüvərək, qarabəniz, uzun saçlı oğlan idi. Plaşı yox idi, havaya baxanda nazik geyinmişdi.

Əlində şəffaf qovluq vardı. Qovluğun içərisində mühazirə dəftəri, bir də nazik bir kitabça açıqca görünürdü. Gənc pillələri sürətlə endi. Başını qovzayıb göyə baxdı. Ağzını araladı, damcıların altına tutdu. Deyəsən balıq¬lar dənizdə bu sayaq su içir. Özü də ilin bu vaxtı. Ani olaraq başlarını dənizin səthindən çıxarıb yağış damlalarını havadaca tutur və bu damlalar balığın canındakı dəniz suyu ilə birləşib mirvariyə çevrilir. Sanki o sirli mirvariyə sahib olmuş gənc indi bütün səmanı qucaqlamaq istəyirmiş kimi qollarının ikisini də açıb elə bil yerə, göyə belə deyirdi: «Sevirəm, vallah, son iliyiməcən, qanımacan sevirəm. Kimsə məni bu yoldan döndərə bilməz».

O qəfil bir ayağının üstündə fırlanıb xəyali bir dairə cızdı. Guya dairənin içərisi onun aləmində dünyanın yarısı demək idi. Əl-qol atıb, bir an əvvəl zəbt etdiyi və dərhal da özəlləşdirdiyi balaca məhlə yerinə, yəni o dairənin həndəvə¬rinə bir kimsəni yaxın buraxmaq istəmirdi elə bil…

Tələbələr, qapıdan çıxmaqda olan müəllimlər ona təəccüblə baxırdılar. Kimsə yaxınlaşıb qolundan tutmağa, onu laübalü çırpıntılardan ayırmağa cəhd eləmirdi. O isə öz aləmində idi. Bəlkə sevgilisindən aldığı cavabın və yaxud xoş bir baxışın təsiri ilə eyforiyaya qapılmışdı. Özünü dünyanın ən xoşbəxt adamı sayırdı. Şıdırğı yağışın altında dayansa da, boynundan, boğazından süzülüb bədənini isladan

yağış suları ona ləzzət və güc verirdi. Birdən göy guruldadı. Uzaqlarda şimşək işığı parlayıb söndü. Tələbə gənc vəcdə gəlmiş kimi qışqırdı: «Kəramınə qurban olum, ilahi, göylər səsimə səs verdi. Gördünüzmü işıq necə yandı, eşitdinizmi gurultunu?»

Ruslan mühərriki işə saldı. Tərpənmək lazım idi. Ancaq bu qəribə oğlanın qeyri-adi hərəkətlərinin nə ilə qurtaracağı da onun üçün çox maraqlı idi.

Qızlar aralanıb gözdən itə bilərdilər. Boş yerə çirkli yağış suları axan küçədə gözləməyin nə mənası.

– Psixdi, yazıq…

– Bizə baxanda ona min şükür!.. – Polad dedi.

– Allah eləməsin biz psix olaq.

– Elə bilirsən o dəlidi? – Polad soruşdu.

– Əlbəttə, dəlidi, özü də lap zəncirlisindən.

– Onsuz da hərəmiz bir cür dəliyik, hərəmizin bir cür kəndiri var. Amma o tələbə gör nə qədər səmimidir, gör nə qədər təbiidir.

– Yox əşşi, bəlkə dahidir?

Yağış şiddətlənirdi. Küçələrdən axan su artaraq bəzi yerlərdə səkiləri basırdı. Ruslan şüşətəmizləyənin sürətini artırdı. Polad:

– Mənim işim Allaha qalıb, – dedi, – səni də işindən elədim…

– Hansı işimdən eləmisən, alə? Ömründə məni bir dəfə sevindirmisən, indi onu da çox görürsən? Ən vacib işimiz elə budur. Səkinə xalanı özüm muştuluqlayacam…

– Təki işlər düzəlsin, – Polad razılıqla Ruslana baxıb gülümsədi.

Bu vaxt Şubanı dağları tərəfdə bir də şimşək çaxdı, yenə göy guruldadı. Universitetin qapısından çıxanlar göy gurultusunu və

şimşəyin güclü yağı¬şın xəbərdarlığı olduğunu bilir, tələm-tələsik dayanacaqlara – maşınlarına tərəf qaçırdılar. Həmin tələbə hələ də yağışın altında fırlanır, əl-qol atır, öz-özünə danışırdı. Hərdən səsi azalır, hərdən də ucadan eşidilirdi. Bu dəfə o, əlini şimşək çaxan tərəfə uzatdı:

– Ey şimşək, bura bax, səni belimə dolayacağam. İldırım, əgər çəkinəcəyin yoxdursa, mənə sarı gəl, səni göydə tutub udacağam.

Daha Ruslan özünü saxlaya bilməyib şaqqanaq çəkdi.

– Alə, mən sənə dedim axı, bu, dəlidir!

Polad da gülürdü. Amma Ruslanın sözlərini də cavabsız qoymadı.

– Hər halda dahiyanə dəlilikdir, sevilməyə layiq dəlilikdir. Dedim axı, dahilər göydən düşmür.

– Bəli də, işimiz var. Bu avara da dahi olacaq…

– Ola bilər, gələcəyin dahisini görmək qismətimizə düşdü, – yenə gülüşdülər.

Ruslan maşını yerindən tərpətmişdi. Tərpədən kimi də yaşıl işıq yandı və sürüb keçdi.

– Qardaş, bax, sənə bəri başdan deyirəm, qızının yanında bu cür sarsaq söhbətlər eləmə. Qızlar boşboğazlığı xoşlamırlar, tez bezirlər.

– Hmm…

Poladın səsi çıxmadı, amma başını razılıqla tərpətdi və köks ötürdü.

***

Günorta idi. Qalın, sıx buludlar bir az da aşağı enmişdi. Elə bil onları qara qatrana batırıb göyün üzünə sərmişdilər. Və o qatranlı nəhəng pərdə ləngər vura-vura, asta-asta hərəkət etməkdə idi. Bayıl tərəfdən

Badamdar dağları üzü dənizə tərəf qatran buludların kölgəsinə girmişdi. Amma şəhərin şimal-şərq tərəfinə doğru buludlar seyrəldiyindən, hətta arada bir ala-tala gün işığı da görünüb bərq vururdu. Şərtləşdikləri kimi, univer¬sitetin qabağında görüşməliydilər. Hava açılacaq deyəsən. Artıq yazbaşı təbiət donunu dəyişməyə can atıb, tumurcuqlar köpəşməyə başlasa da soyuqlar tam ötüb keçməmişdi. Zəif şimal küləyi böyük Qafqazdan – Şah dağdan üzü bəri adamı kəsən soyuq gətirirdi. Amma qışın canı üzülmüşdü daha. Bir-iki günə Novruz tonqalları yanacaq. Şəhər libasını dəyişəcək. Elə dağlar da qış kürkündən çıxacaq, yazın gözəl ömrü başlayacaqdı.

Polad havaya baxdı. Havadan baş açmalı deyil, yaxşı ki, plaşı istədi. Plaşsız çətin olardı. Bəlkə elə Sevdayla xeyli söhbət elədi, bəlkə, bulvara çıx¬dılar. Bəlkə bir neçə saat qoşa oldular. Belə soyuqda plaşsız mümkün deyil axı. Bu gün qəti qərara gəlmişdi ki, Sevdaya yaxınlaşsın. Ruslana da söz vermişdi. Özü də Sevdanın yanındakı qızdan aralanmağını istəyirdi. Ruslanla bir yerdə olmağa razılıq verməsi də elə bununla bağlı idi. Axı onların ikisi bir yerdə olanda Sevdayla necə danışacaq? Onsuz da indidən uçunur. Əgər söhbət alınsa, Ruslan canıyanmış rəfiqəni bir qırağa çəkib başını qatar, Polad da Sevda ilə söhbət edə-edə uzaqlaşıb münasib tərəfə gedər. Təki işlər onun dediyi kimi olaydı, istədiyi kimi alınaydı. Hər halda Ruslan çox fərasətli oğlandır. Hər nə vəziyyət olsa, bir yol tapar ki, pərt olmayım.

Ruslanın «Mersedes»i kəsik siqnal verdi. Küçənin əks tərəfində dayanmışdı.

– Polad, axı danışmışdıq, biz üzü bu yana gedəcəyik, niyə yolun o tayında bitib qalmısan? – Ruslan qışqırdı.

Polad çağırışa bəndmiş kimi, yaxınlaşan maşınlara əhəmiyyət vermə¬dən, qaça-qaça küçənin o biri tərəfinə şığıdı. Sürətlə gələn maşınlar arxasından, qabağından keçirdi.

Maşının qapısını açıb içəri soxulan Polada Ruslanın ilk sözləri bu oldu:

– Alə, evi tikilmişin balası, özünü maşına vurdurarsan... Hələ bilmirsən o qız nə deyəcək! Özünü nöş şəhid eləyirsən?

Sözlər Poladın üzünə qırma kimi çırpılsa da mehriban-mehriban əl verib görüşdülər.

– Getdik, ee...

Ruslan həvəslə maşını tərpətdi. Bu dəfə bir tin bəridə dayandılar. Qızlar düz onların yanından keçəcəkdilər. Çox gözləməli olmadılar. Rus¬lan maşını döndərib qızların gedəcəkləri istiqamətə tərəf saxlamışdı. Ona görə də qanrılıb geri baxdılar. Maşının şüşələri şəffaf idi. Ruslanın qara plyonkalarını sonuncu dəfə bir həftə əvvəl sökmüşdülər. Bu münasibətlə aralarında şirin və tez-tez xatırlanan zarafat da vardı.

*    *    *

Ruslan:

– Mənim plyonkalarımı sökənin... – deyə söyürdü. Polad da hər dəfə onun bu söyüşünə balaca düzəliş edirdi:

– Sənin plyonkalarını yox, maşının örtüklərini.

– Alə, olsun də, işimiz düz gətirsin.

Polad qəfil yuxudan oyanan adam kimi səksəndi:

– Odur, odur, gəlirlər.

– Hə, gəlirlər, – Ruslan dönüb baxdı.

Qızlar yaxınlaşmaqda idilər.

– Alə, bunların ikisi də gözəldir. Yaxşı yadımda qalmayıb, Sevda hansıdı? Yəqin bu bəstəboy olar. – Ruslan bic-bic gülümsədi.

Polad:

– Yox, o bəstəboy sənin olsun, – dedi. – Min adamın içində olsa da, mən Sevdanı işığından tanıyaram.

– Alə yaxşı, əlindən almadıq ki?.. Təki razılıq versin.

Qızlar maşının yanından keçəndə gənclərin onlara baxdıqlarını hiss etdikləri üçün səksəkəli ötdülər. Hələ deyəsən Sevda Polada salam da vermək istədi. Tədbir söhbəti, Afətin tanış eləməyi, sonra da hansı səbəbdənsə, bəlkə də, Afətin qəlbinə düşmüş şübhə qığılcımları sayəsin¬də həmin tədbir baş tutmamışdı. Və Sevda o itən itmişdi.

Amma qız salam vermədi və onlar sakitcə keçdilər. Ruslan maşını tərpədib qızlara yaxınlaşdı.

– Təklif elə, təklif elə ki, hara lazımdır gəlib əyləşsinlər aparaq. – Ruslan zabit əsgərə göstəriş verən kimi hökmlə dilləndi.

Ancaq Poladın ləngidiyini görüb fürsəti qaçırmadı.

– Qızlar, gəlin əyləşin aparaq. Hara istəyirsiniz...

Rəfiqəsi başını Sevdanın çiyninə dayayıb nəsə dedi. Deyəsən Sevda da bir xoş cavab verdi. Qızlar gülə-gülə Ruslangil tərəfə baxdılar. Və bu zaman Sevdanın rəfiqəsi onun qolundan tutub uzaqlaşmaq istədi. Sevda gənclərə eşitdirmək üçün:

– Nərminə, bəlkə sən tanıyırsan bu oğlanları? – dedi.

Nərminə Sevdanın nə demək istədiyini göydə tutdu.

– Yox, qəşəng oğlanlar, bizə maşın lazım deyil, xüsusilə də tanımadı¬ğımız adamların maşını.

Poladın nitqi tutulmuşdu. O, dillənə bilmirdi. Ona görə də söhbətdə əsasən Ruslan və Nərminə iştirak edirdi. Ruslan lap yaxın adam kimi danışırdı.

– Nöş tanımırıq, siz universitetin psixologiya fakültəsinin tələbələ¬ri¬siniz, biz də tarixçilərik. Amma sizdən yuxarı kursda oxuyuruq.

Sevda dönüb diqqətlə baxdı. Sanki onun düz, yoxsa yalan danışdığını ayırd eləmək istəyirdi. Sonra da qətiyyətlə dönüb rəfiqəsinin qolundan yapışdı. Küçəni keçib Milli kitabxanaya tərəf döndülər.

Ruslan əl çəkmək fikrində deyildi. Hərəkətin yol verdiyi istiqamətdə fırlanıb yenə qızların qabağını kəsmək istəyirdi.

Poladın əhvalı korlanmışdı.

– Ruslan, axı biz onlarla eyni universitetdə oxumuruq.

– Nə olsun alə, mən demədim ki, eyni universitetdə oxuyuruq. Mən dedim ki, universitet tələbələriyik. Onlar

psixologiya fakültəsində oxuyur¬lar, biz də tarixçilərik. Mən hər şeyi düz demişəm. – Ruslanın inadı Poladı razı salmadı. Axı onun yalan-palanla, fırıldaq işlə ömür-billah arası olma¬yıb. İndi dostunun düzüb qoşmağı onu zəncirdə də salır, utandırırdı.

Ruslan qırmızı işıqda küçəni keçib qızların getdiyi tərəfə istiqamət götürmüşdü. Bu vaxt zəng gəldi. Balaca, bahalı telefonun qapağını qal¬dır¬dı. – Bəli, bəli, mənəm, Ruslandı, eşidirəm Səkinə xala. Çox sağ olun, yaxşıyam. Yanımdadır, onunla bir yerdəyik. Yaxşı, yaxşı, oldu. Bu gün yola salaram.

Ruslan telefonun qapağını qatlayıb ikisinin arasındakı yumşaq yerə atdı.

– Hə, Polad işlər qaldı. Səkinə xala idi zəng edən. Dedi ki, təcili rayona gələsən.

Poladın əhvalı qarışdı:

– Axı nə üçün, nə olub?

– Dedi ki, vacib iş var, məsləhətləşməliyik.

Poladın ağlına gəldi ki, evlərinin sökülmək məsələsidi. Lənkəranda balaca Liman qəsəbəsindəki əraziləri hansısa bir şirkət alıb, istirahət bazası tikiləcək. Bu söz-söhbət çoxdan vardı. Yəqin elə bu məsələdir. Yoxsa xırda məsələyə görə arvad onu dərsdən ayırmaz. Qərara gəldilər ki, elə indi çıxsın rayona.

Ruslan maşını Azneft meydanına sürdü. Sürücüləri «Lənkəran», «As¬ta¬ra», «Masallı», «Cəlilabad», deyib müştəri haylayan maşınlardan birinə yaxınlaşdı.

– Lənkərana təcili kim çıxır?

– Mən. Bir nəfərim var, üç nəfər də olsa, çıxarıq.

– Al, üç nəfərin pulu, tərpən.

Ruslan bədxərclik eləyirdi. Halbuki bir az gözləsəydilər, digər müştə¬rilər də özünü yetirəcəkdi. Buna baxmayaraq dillənmədi.

O, sürücünün pulunu verdi. Etirazına baxmayaraq iki yüz dollar da çıxarıb Poladın cibinə basdı:

– Birini yola xərcləyərsən, birini də Səkinə xalaya verərsən. Mən də səninlə gedərdim. Amma papadan xəbərdarlıq almışam. Özü də ciddi xəbər¬darlıq – qırmızı vərəqə. Şəhərdən çıxa bilmərəm, – dedi və sonra da maşının arxa qapısını açıb oradan özünün qara, bahalı plaşını çıxarıb Poladın qolunun üstünə atdı.

– Sənə yaxşı yol. Darıxma, tezliklə görüşərik, hər şey də qaydasında olar, – dostlar qucaqlaşdılar.

***

Maşın Bibiheybət məscidinin yanından keçəndə dənizin üstü par-par yanırdı. Günəş aləmi nura qərq etmişdi. Ala-tala buludlar gur işığın qabağını kəsə bilmirdi. Polad Bakıda

ev alıb və o evə Sevdanı gəlin gətirmək xəyalı ilə gözünü yumdu. İndi o, oyaq idi, yoxsa yatmışdı, özü də bilmirdi...

Əvvəlcə Polada elə gəlirdi ki, bir gəmidədir. Gəmi hərdən ləngər vurur, hərdən sakit-sakit üzür. Niyə hərdən, lap yaxşı üzür. Budur, Polad göyərtədə dayanıb. Səhərin alatoranlığı çəkilməkdədir. Şərqdən, dənizin uzaq üfüqlərindən, qırmızı şəfəqlər içindən gələn işıq Poladın sifətinə yayılır. Polad istəsə də gözünü o qırmızı işıqlar arasında dağa-dərəyə bənzər bulud topalarının üstündən çəkə bilmir. Bütün diqqəti həmin qır¬mızı işığın yanında idi, indi ordan gün doğacaq, günəş qalxaraq hər tərəfi işığa qərq edəcək. Bu işığı gözləyirdi Polad. Ona elə gəlirdi ki, neçə illərdi bu gəmi qaranlıq içində yol gedir. Dəniz üstündəki yolun nə əvvəli var, nə axırı. Gəmi qəribə bir gəmidi. Dəniz yolunu tutub gedir... Hər tərəf sudur. Qəribədi, gəmi dümdüz gedir... Sanki bir az kənara çıxsa, aşacaq. Əlləri ilə bərk-bərk öz yaxasından yapışıb. Öz-özünü silkələdi. Bəlkə yuxu görür? İlahi, o bu yolu getməkdən bezib, bu yol onu yorub. Bu yolu başa vurmalıdı. Bəlkə dönüb başqa tərəfə getsin. Hara gedəcək, bu dənizdir və hər tərəf sudur. Gəmini hara döndərsə, yenə su olacaq. Dörd yana baxıb yolu görmək istəyirdi. Bəlkə bir yandan torpaq görünəcək, bəlkə bu qaranlıq dağılacaq, səhər açılacaq, axı nə qədər gecə olar?

Göyərtədən boylanan Poladın uzaq üfüqlərdəki şəfəqə – qırmızıya diqqəti məhz yol bulmaq niyyətinə görə ilişib

qalmışdı. Qollarını açıb qışqırmaq istədi: – Deyəsən, işıq görürəm, deyəsən səhər açılacaq, deyəsən o yan torpaqdır, deyəsən səhər açılacaq. Daha mən bu su səltənətində qalmaq istəmirəm. Bax odur, mən o səhərin açıldığı yerdə torpağın üstünə çıxacağam. O torpağın üstündə özümə ev quracağam. Orda – mənim özümə ev qurduğum yerdə Sevda məni gözləyir.

Deyəsən, Sevda məni gözləyir sözlərini Polad ucadan dedi. Ona görə gözünü açıb yan-yörəsinə baxdı. Bu nədir, bu gəmidə axı məndən başqa heç kim yox idi. Elə bil kimsə mənə baxır. Bir az aralıda nəhəng dor ağacının – bəli, bəli gəmi lap qədim gəmilərdən idi, hələ desən, onun yelkənləri də var idi – böyründə dayanıb, ağaca söykənib istehzalı baxış¬larla onu süzən Afəti gördü. Afətin baxışlarında istehza qarışıq bir təəssüf də vardı. O, Polada acıyırdı. İstədi ona desin, sən məndən nə istəyirsən? Sən elə bilirsən mən dəli olmuşam?

– Yox, mən dəli olmamışam, mənim ağlım başımdadır. Sadəcə, qaranlıqda getməkdən bezmişəm. İşıqlığa çıxmaq istəyirəm. Bu zülmətdən canımı qurtarmaq istəyirəm.

– Yox, Polad, sən daha artıq zülmətə doğru gedirsən. Görmürsən ki, işığa baxdığın halda üzdüyün gəmi qaranlığa doğru gedir? Hələ o qaranlığa yaxşı bax. Gör içində necə bir tufan qıvrılır? Bilmək olmaz, bu gəmi o tufandan çıxacaq, ya yox...

Polad ağzını açıb nəsə demək istədi. Amma deməyə macal tapmadı. Dəhşətli bir külək nəhəng dalğanı göyərtəyə çırpdı.

Az qala dalğanın gətirdiyi sel onu yuyub aparacaqdı. Haray salmaq, qışqırmaq istədi. Bu vaxt ağlına gəldi ki, Afət dalğanın lap önündədir. Bəlkə, tufan onu birinci udacaq?

Maşın qəfil ləngər vurdu. Balaca torpaq təpəciyinin üstün¬dən adlayıb yolun kənarına çıxdı. Sürücü sükanı möhkəm tutmuşdu. Qumlu yolda təkərlər sürüsdü və sonra xoşbəxtlikdən sürücünün əyləci basmasına tabe olub dayandı.

Polad ayılmışdı. Nə baş verdiyini dəqiq bilmirdi. Ancaq onu eşitdi ki, sürücü maşının qapısını açıb bir əli sükanda, bir ayağı da yerdə yolun kənarına baxır.

– Yaxşı qurtardıq, Allaha çox şükür. Yəqin bu studentin anası namaz üstündə imiş. Yoxsa, maşın aşsaydı hamımız birtəhər olacaqdıq.

Polad yan tərəfdən şüşəni endirdi, baxdı. Sürücü hələ də deyinirdi. Bu zalım uşağı – yol təmir edənlər də qumu gətirib lap yolun ortasına töküblər. Özü də elə yerdən töküblər ki, qəfil adamın qabağına çıxır. Bilmirsən neyləyəsən.

Hadisə mənzil başına çata-çatda baş vermişdi.

Polad sürücüdən xahiş etdi ki, onu əsas yoldan çıxarıb evlərinə aparsın. Evlərinin lap yaxında olduğunu bildirdi.

– Apararam, qardaş. Nə üçün aparmayım? Təki razı qalasan. Sabah «Azneft» meydanında məni görəndə üzünü döndərib getməyəsən...

Polad həyətə girdi. Anası evdə yox idi. Qonşuya adladı. Qonşu da harasa çıxırdı. Başına qara şal örtmüşdü. Poladı görəndə ayaq saxladı:

– Bay, Polad, bibi qurban. Nə yaxşı gəldin? Anan səni gözləyir. Gəl, Allah rəhmət eləsin, xalan haqq dünyasına qovuşdu.

Polad bu qadına uşaqlıqdan bibi deyirdi, atası tərəfdən qohumluğu çatırdı.

– Xalan rəhmətə gedib, – qadın qara xəbəri təkrarladı. İki tin o tərəfə Poladın xalasıgilin evi idi. Anası onu görən kimi adamların arasından – mərəkədən çıxıb oğluna tərəf gəldi. Boynunu qucaqlayıb ağladı.

– Xalan səni çox istəyirdi, ay bala, indi istəməsin. Elə dünən axşam da arzuladı.

Poladın gözləri dolmuş, kövrəlmişdi. Anası onu sakitləşdirib, bir tərəfə çəkdi.

– Ay oğul, bilirsən ki, xalan kimsəsizdi. Yas üçün də bir ehtiyatımız yox. Heç bilmirəm nə edək?

Səkinə birdən duruxdu. Oğluna bu sözləri nə üçün deyirdi? Ürəyində özünü danladı. Heç uşağa dəxli var? Guya ki, tələbə Bakıdan pul gətirəsidi. Sözü dəyişmək istədi. Birdən Poladın qolunun üstünə atdığı plaşı gördü:

– Nə yaxşı plaş almısan, ay bala, gey əyninə. Dənizdən soyuq külək əsir.

Polad Ruslan verən pulları cibindən çıxarıb anasına uzatdı:

– Götür, ay ana, Ruslan göndərdi.

– Ruslan nə bilib ki, bizə pul lazımdır?

– Nə deyim, dedim bəlkə sən istəmisən.

– Şərə-şur olsa da, qənimət oğlandı, Allah saxlasın. Nə olar, o da sənin qardaşın. O da səni başa düşməyəndə, kim başa düşəcək?

Səkinə arvad yüzlüyün birini götürdü.

– Yox, biri qalsın, lazım olsa onu da verərsən. Amma plaşı əyninə gey. Nə yaxşı almısan. Dost-tanış arasında olacaqsan. Əynin abırlı olsa yaxşıdır.

– Yox ana, onu geyməyəcəm, Ruslanınkıdı. Ehtiyata götürmüşdüm, onsuz da hava yaxşıdı. Soyuq deyil mənə.

Səkinə arvad təəccüblə oğluna baxdı. – Daha geyməyəcəkdin, niyə alırdın? – düşündü.

Əlbəttə, Polad anasına izahat verməyəcək ki, bu plaşı o, hara geyəcəkdi və nə üçün almışdı...

***

Yeddi gündən sonra Polad səhərə yaxın Bakıya çatdı. Yuyundu, üzünü qırxdı. Plaşı geyib küçəyə çıxdı. Sevdagilin

binasının tininə necə çatdığını bilmədi. Həmişəki yerdə dayandı. Sevda görünmürdü. Axı düz saat sək¬kizdə o, bu tindən keçib dayanacağa gedirdi. Özü də hesabla gərək Po¬lad tərəfə gələydi və yaxınlığından keçib dayanacağa çataydı. Saat doq¬qu¬za işləyirdi, bəs hanı? Birdən Sevda tində göründü. Amma Polada tərəf gəlmədi, küçə aşağı getdi. Ürəyi quş kimi çırpındı. Onun arxasınca yüyürüb qışqırmaq istədi:

– Dayan, hara gedirsən? Sənin yolun axı burdan – mənim yanımdan keçir...

İndi neyləsin? Qızın arxasınca düşüb qaraba-qara izləsinmi? Özündən asılı olmadı, yerindən tərpənib üzüaşağı getdi. Sevda ilə onun arasındakı məsafə otuz metr olardı, ya olmazdı. Addımlarını yeyinlətdi. Sevda qarşı tinə çatıb döndü, Poladsa yüyürdü. Tindən çıxan kimi, qızın bir maşının qapısını açıb qabaq oturacaqda əyləşdiyini gördü. Ağ rəngli «Mersedes» bir anlığa Sevdanı uddu və şığıyıb uzaqlaşdı.

Bu, Ruslanın maşınıdır ki?!

Poladın ayaqları yerə mismarlanmışdı. Görəsən o zindan kimi ağır dabanlarını torpaqdan qoparıb hərəkət edə biləcəkdimi?

Yol yadında qalmamışdı, səssiz, nəfəssiz, gözəgörünməz ruh kimi ötüb bura çatmışdı. Yenə də ətrafını hiss etmədən

«Memar Əcəmi» metro stan¬si¬ya¬sına düşürdü. «Elmlər Akademiyası» stansiyasından çıxıb universitetə tərəf getdi.

Ruslanın maşını həmişəki yerində idi.

***

Universitetin tələbələrə aid giriş qapısından keçmək istəyirdi ki, Afəti gördü. Yüngülcə salam verib keçmək istədi, bacarmadı. Özü də bilmədi ki, qıza tərəf necə getdi. Afət də beş-altı addımlıq məsafəni quş kimi uçdu. Üzəbəüz idilər. Afət Poladın qaralmış sifətinə baxdı:

– Nə olub, ay Polad, neçə gündür yoxsan. Bu gün anana teleqram vurmaq istəyirdim.

Polad dinmədi. Afəti birinci dəfə görürmüş kimi maddım-maddım baxdı.

Yolda, maşında gedərkən yuxuda gördüyü qırmızı şəfəqli mənzərə ani olaraq yaddaşında yenidən işardı. O işıq, o yol Poladı Afətin gözlə¬rinin dərinliyinə çəkirdi. Qızın gözlərindən aşıb-daşan sevinc dalğaları oğlanın ürəyinin qapılarını döyəcləyirdi. Sanki Afət elə buradaca, univer¬si¬tetin foyesindəcə bəxtiyarlığını hamıya bildirmək üçün ucadan qışqı¬racaq...

– Nə yaxşı səni gördüm, Polad. Sənsiz neçə gün idi ki, universitet mənim üçün qaranlığa bürünmüşdü.

Qızın demədiyi bu sözləri Polad onun gözlərindən, baxışlarından oxudu. Birdən Pedaqoji Universitetin qabağında dəlicəsinə qışqırıb öz sevgi¬sinin gücü ilə göylərə meydan oxuyan «dəli» yadına düşdü. Afətin üzü hədsiz dərəcədə səmimi və doğma idi.

***

Ruslan həmin gün dərsə girmədi. Dekanlığa getdi. Dekanın katibəsi ilə şirin-şirin danışıb «icazə kağızlarından» birini stolun siyirməsinə qoydu. Katibə xalaxətrin qalmasın:

– Ruslan, nə edirsən? – guya etiraz etdi. – Keç, dekan içəridə təkdir, – dedi.

O dekanın kabinetində heç üç dəqiqə ləngimədi. İcazə hazır idi. Neçə günün yağışlı havasından sonra palçığa, zığa batmış maşını yudurtmalı idi.

Maşına tərəf yeridi. Amma dil töküb, Sevdanı yola gətirincə zülüm çəkdi ha. Eşq olsun «blatnoy» oğlanlara. Əziyyəti boşa getmədi. Bu gü¬norta Sevda ilə birgə nahar edəcək, özü də şəhərdən kənarda. Əl-ayaq¬dan uzaq, sakit bir guşədə qərar tutan «İki dost» restoranında.

Maşının üstündə nəsə qaralırdı. Elə bil qara bir pişik yumurlanıb yatmışdı. Ola bilməz, belə səsli-küylü yerdə pişik nə gəzir. Bir az da yaxına gəldi. Polada verdiyi plaş idi.

Plaş yağışdan sonra quruyub «Mer¬sedes»in parlaq rəngini görünməz eləyən, yalan olmasın əl qalınlıqda palçıq tozuna bulaşıb it kökünə düşmüşdü. Maşının toz tutan arxa şüşəsinin üstünə isə latın qrafikası ilə, iri hərflərlə yazmışdı: – «Əclaf!!».

Sözün sonunda iki nida işarəsi qoyulmuşdu. Hər nida birinin payı.

Ruslan tənbəllik eləməyib «Əclaf»ın sonuna daha bir nida əlavə elədi...

Maşının arxasını açdı, plaşın bir ucundan ehtiyatla, az qala barmaqla¬rının ucunda yapışıb onu ölü pişik kimi, yaxud nəsə başqa iyrənc bir şey kimi boş «baqajnik»ə tulladı...

Fikri bir azdan görüşəcəyi Sevdanın yanında olan Ruslan indi hislərinə hakim deyildi. Qızın pəmbə, göyçək dodaqlarının, mərmər sinəsinin, şux döşlərinin, ağ, dolu baldırlarının ehtirası ilə alışıb-yanan Ruslan qeyri-ixtiyari dodaqlarının altında mızıldandı: «Axı Sevda keçiləsi mələk deyil, Polad! İncimə Polad, incimə, Sevdadan keçməkdənsə, səni itirməyi üstün tutdum...»

Bu arada neçə gündür davam edən yağış yenidən yağmağa başladı. Ruslan getdikcə şiddətlənən yağışda çirkabını, palçığını yudurtmaq istədiyi maşınına baxdı. Yağışda maşını yudurtmağı mənasız hesab etdi. Fikirləşdi ki, bu cür leysan yəqin maşını yuyub təmizləyər.

Bir azdan Ruslan «Mersedes»ini Pedaqoji Universitetin qarşısında saxlayıb Sevdanın dərsdən çıxmasını gözləyirdi. Amma Ruslan bilmirdi ki, şıdırğı yağış maşının zığını, palçığını yusa da, arxa şüşədəki «Əclaf» sözünü təmizləyə bilməmişdi.

Aprel–avqust, 2008